100 ilin qəzeti

ŞƏRQ QAPISI



Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Sayı: 36 (24.471)

20 sentyabr 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Biz müstəqilik, biz qalibik, biz suverenik!




Azərbaycan xalqı dünyanın yeganə xalqlarındandır ki, bütün meydanlarda igidliyini, mərdliyini ortaya qoyur, müharibədə, döyüşdə belə humanistliyini qoruyub saxlamağı yaxşı bacarır. 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində çarəsiz vəziyyətə düşən düşməninə əl uzadan, halına acıyan, sülhsevər, yardımsevər olduğunu sübut edən xalqımızın qəhrəman nümayəndələri 2023-cü ilin sentyabr ayında hərb tarixinin ən qısa, sərrast, adil əməliyyatını reallaşdırmaqla regionda ədalətli nizam yaratdılar, mühüm şanlı tarix yazdılar. Və beləliklə, Azərbaycan dövləti bütün ərazisində öz suveren və konstitusion hüquqlarını tam bərpa etdi. Prezident İlham Əliyevin 2024-cü il sentyabrın 19-da imzaladığı Sərəncamla bu şanlı tarix əbədiləşdirildi, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edildi. Bir neçə ay sonra, daha dəqiq desək, 2024-cü il dekabrın 28-də isə Prezident İlham Əliyevin imzaladığı növbəti Sərəncama əsasən 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan olundu. Nəzərə alsaq ki, konstitusiya və suverenlik anlayışları dövlətlərin hüquqi və siyasi əsasları ilə yanaşı, onların milli kimliyini də aydın şəkildə təsdiq və ifadə edir, onları dünyaya yaxından tanıtdırır, o zaman tarixi zəfərin 5-ci ilini nəzərdə tutmaq baxımından bu Sərəncamın əhəmiyyəti daha aydın, daha bariz şəkildə özünü göstərir. Sərəncamda deyilir: *"2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir".*

Səhifə ⇨ 2

## Memar Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, orta əsrlər Azərbaycan memarlığının inkişafında müstəsna yeri olan qüdrətli sənətkar Əcəmi Naxçıvaninin xatirəsinin əbədiləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan şəhərində görkəmli memar Əcəmi Naxçıvaninin abidəsi ucaldılsın.
2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 18 sentyabr 2025-ci il*

## Biz buradayıq, qədim Azərbaycan torpağı olan XANKƏNDİDƏ



Səhifə ⇨ 4

# Biz müstəqilik, biz qalibik, biz suverenik!

(əvvəli 1-ci səhifədə)

## Hərb tarixinin ən sərrast, ən adil əməliyyatı

Vətən müharibəsində məğlubiyyətini Rusiyanın iştirakı ilə üçtərəfli Bəyanatı imzalamaqla rəsmləşdirən Ermənistan çox keçmədi ki, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırdı. Qarabağdakı separatçı qüvvələr törətdikləri təxribatlara qarşı Azərbaycan Ordusundan dəfələrlə aldıqları zərbələrdən dərs çıxarmaq əvəzinə gün ötdükcə daha da azğınlaşıb, daha da quduzlaşdılar. Hər dəfə bir bəhanə, bir oyunla həm yerli, həm də beynəlxalq ictimaiyyəti çaşdırmağa, mənasız yerə vaxt uzatmağa çalışdılar. Gah humanitar məqsədli "Laçın" dəhlizindən çirkin hərbi-siyasi məqsədlər naminə istifadə edərək müxtəlif diversiya qrupları ilə təxribatlara əl atdılar, ərazilərimizi minalayaraq onlarla günahsız insanın həyatına son qoydular, gah "məsumluq" donuna bürünərək yalandan aclıq aksiyasına qalxıb haray-həşir qopardılar, gah da "Spayka" şousu göstərərək BMT-də, Xankəndidə heç bir hüquqi əsası olmayan qondarma prezident seçkiləri keçirməklə dünya ictimaiyyəti qarşısında özlərini rəzil vəziyyətə saldılar. Ancaq qalib Azərbaycan liderinin siyasi iradəsi, müzəffər Ordumuzun qüdrəti qarşısında bütün çirkin siyasi, diplomatik gedişlər, hərbi hiylələr iflasa uğradı, qurulan oyunlar acı məyusluqluğa, məğlubiyyətə düçar oldu.

Beləliklə, 2023-cü il sentyabrın 19-20-də 24 saata yaxın zaman çərçivəsində reallaşdırılan antiterror tədbirləri ilə məzmun və mahiyyətinin zərrə qədər dəyəri olmayan, mənfi obrazlarla zəngin, cəfəng fikir və düşüncələrdən yoğrulan 30 illik uydurma erməni nağılı, nəhayət ki, həmişəlik bitdi. Birliyin, həmrəyliyin gücü, "dəmir yumruğ"un möhtəşəm təntənəsi ilə əzəli yurdumuz Qarabağın hər qarışında separatizmin kitabı bağlandı, erməni mərəzinin kökü kəsildi. Prezident İlham Əliyevin Dövlət Suverenliyi Günü ərəfəsində – bu il sentyabrın 15-də Xocalı rayonunun Badara kəndində Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşündə dediyi kimi: ***"İkinci Qarabağ müharibəsindən sonra artıq bizim şanlı Zəfərimizdən sonra, Şuşanın azad olunmasından sonra onlara deyirdim ki, Azərbaycanda separatçılığa yer yoxdur. Gəlin Azərbaycan qanunlarına tabe olun, gəlin Azərbaycan vətəndaşlığını qəbul edin və burada yaşayın, sizə söz deyən olmayacaq. Yenə də bizə qarşı həm hərbi təxribatlar, həm siyasi təxribatlar, yekəxanalıq və faktiki olaraq mənfi münasibət özünü göstərdi. Ona görə 19-20 sentyabr antiterror əməliyyatı onlara dərs oldu və hamıya dərs oldu. Cəmi bir neçə saat davam edən hərbi əməliyyat separatçıların kökünü kəsdi və onların ümid bağladıqları yerlər də səssiz qaldı. Çünki Azərbaycan Ordusu qarşısında heç kim dura bilməzdi, Azərbaycan xalqı qarşısında heç kim dura bilməzdi, ona görə ki, biz haqlıyıq. Bu gün haqlı olduğumuzu bir daha burada sübut edirik".***

Azərbaycan Müdafiə Nazirliyindən verilən açıqlamaya görə antiterror əməliyyatı zamanı cəmi bir gün ərzində 406 kvadratkilometr ərazi yad ünsürlərdən təmizlənərək ordumuzun tam nəzarəti altına alınıb. Bölmələrimizin dəqiq zərbələri nəticəsində düşmənin 8 tank, 22 artilleriya sistemləri, 14 minaatan, 3 zenit kompleksi, 8 REM vasitələri, 9 hərbi nəqliyyat vasitəsi olmaqla silah və texnikası məhv edilib. Həmçinin əməliyyatın nəticəsi olaraq 1731 müxtəlif döyüş texnikası, artilleriya vasitələri, zenit-raket qurğuları, hərbi avtomobil, xüsusi texnika və digər döyüş vasitələri, eləcə də 18 min 664 atıcı silah düşməndən müsadirə edilərək götürülüb. Bundan başqa, bəlli olub ki, əməliyyat şimalda beş, cənubda isə səkkiz olmaqla, 13 istiqamətdə həyata keçirilib. Vətən müharibəsindəki təcrübədən yararlanaraq və əməliyyatın keçirildiyi ərazinin relyefi də nəzərə alınaraq bölmələrimiz, əsasən, kiçik qruplar halında hərəkət edib. Bu da həm sürətli hərəkət təmin edib, həm də düşmən üçün qəfil yaxalanma effekti yaradıb.

Bir neçə saatdan sonra düşmən dərinliyinə sızan və 9,5 kilometr irəliləyən xüsusi təyinatlı bölmələrimiz bütün istiqamətlərdə əraziyə giriş-çıxışa nəzarətin tam təmin olunması üzrə tapşırığı uğurla icra edib. Ümumilikdə, onu vurğulamaq olar ki, Azərbaycan Ordusu yüksək peşəkarlıq nümayiş etdirərək beynəlxalq humanitar hüququn norma və prinsipləri çərçivəsində, heç bir mülki şəxsi və ya obyekti hədəfə almadan antiterror əməliyyatı keçirib və 24 saatdan da az müddətdə 15-18 minlik hərbi qruplaşmanı təslim olmağa məcbur edib. Antiterror əməliyyatına dair açıqlanan bu faktlar da bir daha müharibədən sonra ölkəmizdə hərbi quruculuq işinin mükəmməl şəkildə reallaşdırıldığını və xalqımızın qələbə əzminin, "dəmir yumruğ"un yenilməzliyinin sarsılmaz olduğunu bütün dünyaya sübut etdi.



## Tarixi zəfəri taclandıran misilsiz hərbi nailiyyət

Müzəffər Ordumuzun yüksək peşəkarlığının ən bariz göstəricisi sayılan lokal xarakterli antiterror tədbirləri ilə Ağdərə, Xocavənd, Xocalı və Xankəndi separatçı rejimin tör-töküntüsündən təmizləndi, ölkəmizin suverenliyi, ərazi bütövlüyü tam təmin olundu. Qarşı tərəfin provakasiyalarına baxmayaraq, bir mülki şəxsin belə xəsarət almadığı əməliyyatla Azərbaycan Ermənistana növbəti dəfə humanistlik dərsi keçdi. Əzəli torpaqlarımızda üçrəngli Azərbaycan bayrağının qaldırıldığı gün – oktyabrın 15-i isə ikiqat mühüm an kimi tarixə düşdü. Həmin gün yaşanan bu böyük xoşbəxtlik 100 illiyi qeyd olunan Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu yolun təntənəsi, hakimiyyətə gəlişinin 20 ili tamam olan Prezident İlham Əliyevin qalib lider kimi xalqına siyasi fəaliyyətinin ən böyük yubiley hədiyyələrindən oldu. Xankəndidə Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edən ölkə başçısı məhz bu məqama toxunaraq dedi: ***"Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi".***

Antiterror tədbirləri sayəsində vaxtilə soydaşlarımızın ölümünə fərman verən, xalqımıza hədə-qorxu gəlməyə çalışan qondarma rejimin dırnaqarası "prezidentləri", "nazirləri", "generalları" da qandallanıb dəmir barmaqlıqlar arasına salındı. Bir vaxtlar Bakıda çay içmək arzusu ilə yaşayan, xəbərdarlıqlara məhəl qoymayan separatçılar indi istintaq təcridxanasında "pürrəngi" çaydan içib, dizlərini qucaqlayaraq ədalət məhkəməsinin qərarını gözləyirlər. Bəli, Azərbaycan öz gücü hesabına beynəlxalq təşkilatların etməli olub edə bilmədiklərini etdi, mövcud tarixi ədalətsizliyə son qoydu, haqq işığını yandırdı. Ən qısa vaxtda, minimum itki ilə dünya hərb tarixində mühüm örnək sayılan bu əməliyyat müzəffər Ordumuzun 44 günlük Vətən müharibəsindən sonra qüdrətinin və döyüş təcrübəsinin daha da artdığını sübut etdi. Heç bir kənar müdaxiləyə yol verilmədən aparılan antiterror tədbirləri, eyni zamanda qalib liderin uğurlu diplomatiyasının, siyasi qətiyyətinin bariz ifadəsinə çevrildi. Azərbaycan özü bütün ərazisində beynəlxalq ədaləti, eyni zamanda da konstitusion hüquqlarını, suverenliyini tam təmin etdi. Antiterror tədbirlərində qazanılan qələbə həm də böyük qələbəni taclandıran, qiymətini, dəyərini daha da artıran misilsiz hərbi nailiyyət kimi müasir tariximizə düşdü. Beləliklə, 30 illik Xocalı, Xankəndi, Xocavənd, Ağdərə həsrəti də sona yetdi, əzəli yurdlarımıza əbədi bahar, əbədi həyat qayıtdı.

2023-cü ilin sentyabrın 19-20-də reallaşdırılan antiterror tədbirlərindən iki ay keçməmiş 8 noyabr – Zəfər Günündə qədim Azərbaycan torpağı Xankəndidə keçirilən paradla həm də Ali Baş Komandanın bir neçə il öncə, daha dəqiq desək, 2018-ci ildə Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda verdiyi vədin əməli təntənəsini yaşadıq. Bəli, Azərbaycan xalqı həm Vətən müharibəsi, həm də lokal xarakterli antiterror tədbirləri ilə çoxəsrlik tarixində bənzəri olmayan tarixi, misilsiz, mütləq Qələbə qazandı. Müzəffər liderin bu il sentyabrın 14-də Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşündə dediyi kimi: ***"2023-cü ilin sentyabr hadisələri, antiterror əməliyyatı bir daha göstərdi ki, heç kim bizim qabağımızda dura bilməz. Çünki bizim işimiz haqq işidir, biz öz torpağımız uğrunda vuruşmuşuq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, amma öz torpağımızdan bir qarış belə heç kimə güzəştə gedən deyilik və bunu sübut etmişik. Bu gün bütün dünya Azərbaycan xalqını haqlı olaraq müzəffər xalq kimi tanıyır. 44 gün və bir gün – heç bir ölkə son 80 il ərzində belə mütləq, tam və ədalətli qələbə qazanmamışdır. Bununla fəxr edirik. Fəxr edirik, necə ki müharibədə döyüşmüşük, vuruşmuşuq, eləcə də sülh şəraitində qurub-yaradırıq".***

Tarixi zəfərimizin 5-ci ildönümü ərəfəsində, Dövlət Suverenliyi Günündə böyük fəxrlə, qürurla, qətiyyətlə deyirik: Biz müstəqilik, biz qalibik, biz suverenik. Yaşasın Ali Baş Komandan, Yaşasın Azərbaycan, eşq olsun müzəffər Ordumuza, eşq olsun qalib xalqımıza! Dövlət Suverenliyi Günümüz Mübarək!

**Nail ƏSGƏROV**

# Böyük Qayıdışın Xocavənd səhifəsi



## Hadrut, Qırmızı Bazar qəsəbələri və Sos kəndi yeni görkəminə qovuşur

***Azərbaycanın tarixən sosial-iqtisadi inkişafında, mədəni həyatında xüsusi yeri olan, turizm potensialı ilə seçilən bölgələrdən biri də Xocavənd rayonudur. Saf dağ iqlimi, gözəl təbiət mənzərələri, qədim abidələr burada iqtisadiyyatın çiçəklənməsini, turizmin inkişafını, dərin sivilizasiyanın formalaşmasını şərtləndirir. Təəssüf doğuran hal odur ki, otuz ilə yaxın müddətdə erməni işğalı, vandalizmi nəticəsində ölkəmizin bu dilbər guşəsinin füsunkar gözəlliyi əlindən alınıb, təbiət, mədəniyyət abidələri viran edilib. Vətən müharibəsinin məntiqi davamı kimi müzəffər Ordumuzun 2023-cü ilin sentyabrın 19-20-də həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri ilə rayon tamamilə düşmən tapdağından azad olunub. Böyük Qayıdış proqramı artıq iki ildir ki, Xocavəndi də geniş mənada əhatə edir, bölgəyə iqtisadi, mədəni həyat yenidən qayıdır.***

Xocavənd Şəhəri Günü ərəfəsində – sentyabrın 14-də Prezident İlham Əliyev rayona səfəri çərçivəsində Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşündə müzəffər Ordumuzun tarixi zəfərinə, dövlət suverenliyinin qazanılmasına, Böyük Qayıdış proqramının uğurlu icrasına əsas səbəb kimi xalqımızın birliyi və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsini xüsusi vurğuladı. Sitat: ***"Bu gün biz bu gözəl Qarabağ diyarında yığışmışıq. Bunun əsas səbəbi xalqımızın birliyidir və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə almasıdır. Biz bütün dünyaya sübut etmişik ki, güclü xalqıq, iradəli xalqıq, döyüş meydanında da qələbə qazanmışıq, sülhə də hər zaman hazır idik. Amma sülh ədalətli sülh olmalı idi, beynəlxalq hüquq və tarixi ədalət üzərində sülh olmalı idi. Son beş ilin tarixi onu göstərdi ki, heç bir xarici qüvvə bizim iradəmizə təsir edə bilmədi. 2023-cü ilin sentyabr hadisələri, antiterror əməliyyatı bir daha göstərdi ki, heç kim bizim qabağımızda dura bilməz. Çünki bizim işimiz haqq işidir, biz öz torpağımız uğrunda vuruşmuşuq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, amma öz torpağımızdan bir qarış belə heç kimə güzəştə gedən deyilik və bunu sübut etmişik".***

Hadrut qəsəbəsi nəinki Xocavənd rayonunun, ümumilikdə, Qarabağın ərazi, relyef baxımından mühüm strateji guşələrindən biridir. Təsadüfi deyildir ki, 44 günlük Vətən müharibəsi dönəmində də ordumuzun əks-hücum planlarında bu bölgə prioritet təşkil edirdi. Belə ki, gərgin döyüşlər zamanı Azərbaycan Ordusu oktyabrın əvvəllərində cənub cəbhəsində irəliləyərək düşmənin gözləmədiyi istiqamətə – Hadruta yönəldi. Oktyabrın 9-da Hadrutun azad edilməsi böyük ölçüdə müharibənin taleyini həll edən əməliyyatlardan biri kimi tarixə düşdü. Çünki məhz Hadrutun azad olunmasından sonra əsgər və zabitlərimiz Şuşaya doğru istiqamət aldı. Ona görə də tarixi zəfərimizin qazanılmasında və bilavasitə Şuşanın azad olunmasında Hadrut döyüşləri xüsusi yer tutur. Və göründüyü kimi, tarixi zəfərdən sonra da Azərbaycan dövləti Hadruta böyük diqqət ayırıb, bu gün aparılan Böyük Qayıdış siyasətində də qəsəbə önəmli paya sahib olmaqdadı. Prezident tərəfindən təməli qoyulan qəsəbədə ən müasir yol, inzibati bina, yaşayış məhəlləsi inşa olunub, soydaşlarımızın köçünə başlanılıb, 10 ailə, ümumilikdə, 41 nəfər öz dədə-baba yurdu Hadruta qayıdıb. Ötən dövrdə "Hadrut" qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi, yeni hərbi hissə, ümumi uzunluğu 12,5 kilometr olan Füzuli-Hadrut avtomobil yolu istifadəyə verilib, transformator məntəqəsi tikilib, mövcud elektrik xətləri bərpa olunub, 8 su anbarı təmir edilib, yeni su, kanalizasiya və qaz xətləri çəkilib, qəsəbədaxili yollarda təmir işləri aparılıb. Qəsəbədə zəruri sosial infrastruktur, o cümlədən hotel, ticarət və ictimai-iaşə obyektləri yaradılıb.

Qarabağın bütün ərazisində reallaşdırılan yenidənqurma və bərpa prosesi zamanı soydaşlarımızın firavan yaşayışının təminatı ilə yanaşı, xalqımıza məxsus tarixi-mədəni dəyərlərin dirçəldilməsi, yaşadılması da diqqətdə saxlanılır. Bu çərçivədə dağıdılmış məscidlərin bərpası və yeni məscidlərin inşası da mühüm yer tutur. Xatırlatmaq yerinə düşər ki, otuzillik işğal dönəmində Qarabağ və Şərqi Zəngəzurda olan 67 məsciddən 65-i erməni terrorçuları tərəfindən məhv edilib. Ötən dövrdə tarixi abidələrin inventarlaşdırılması həyata keçirilib və bərpasına başlanılıb. Heydər Əliyev Fondu tərəfindən Saatlı məscidi, Şuşada Aşağı və Yuxarı Gövhər ağa, Ağdam Cümə məscidləri bərpa olunub, eyni zamanda şəhər, qəsəbə və kəndlərdə yeni məscid binaları tikilib. Bu baxımdan, Hadrut qəsəbəsində məscidin inşası, ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması ilə bağlı görülən işlərin ardıcıl xarakter aldığını göstərir. 2021-ci ilin oktyabrında təməli qoyulan məscid bu il sentyabrın 14-də Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

Xocavəndin Böyük Qayıdışdan böyük pay alan Qırmızı Bazar qəsəbəsi də Qarabağ bölgəsinin ən məşhur yaşayış məntəqələrindən biridir. Qəsəbənin adı və yaranması tarixçəsi də maraqlıdır. Belə ki, yerli məlumata görə, qədimdən bu ərazidə bazar olub, 1924-cü ildə isə ilk dəfə burada 1 may – Həmrəylik günü qeyd edilib və həmin vaxtdan da sözügedən yer "Qırmızı Bazar" adlanıb. Tədricən köçüb gələnlər məskunlaşdıqdan sonra daimi yaşayış məntəqəsinə çevrilib. Yaşayış məntəqəsi 1947-ci ildə şəhər tipli qəsəbə statusu alıb. Qırmızı Bazar İkinci Qarabağ müharibəsinin yekunlarına dair imzalanan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata uyğun olaraq Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə keçib. Və nəhayət, 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror əməliyyatı nəticəsində bütün digər torpaqlarımız kimi, bu qəsəbə də işğaldan azad olunub. Bir qədər əvvəl də qeyd etdiyimiz kimi dövlətimizin apardığı Böyük Qayıdış siyasəti nəticəsində artıq Qırmızı Bazar qəsəbəsi də yenidən qurulur, soydaşlarımız öz doğma torpaqlarına geri dönürlər. Qəsəbədə 300 fərdi ev mövcuddur ki, onlardan da 71-i yararsızdır, 229-u isə qismən yararlıdır. Artıq 10 ev istismara hazırdır. Ümumilikdə, 2025-ci ilin sonunadək 217, 2026-cı ildə isə 12 fərdi ev bərpa olunacaq. Hazırda 10 ailə (39 nəfər) qəsəbəyə qayıdıb.

Göründüyü kimi, tarixi zəfərimizin 5-ci ildönümündə Qarabağa, Şərqi Zəngəzura Böyük Qayıdışın ayaq səsləri daha da yüksək, təmtəraqlı, təntənəli şəkildə eşidilir. 2023-cü ilin sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə tamamilə azad edilən Xocavənd rayonu da yenidən qurulur, bərpa olunur, tarixiliyini qorumaqla müasir görkəmə qovuşur. Rayonun Hadrut, Qırmızı Bazar qəsəbələri və Sos kəndinin sakinləri öz doğma yurdlarına qayıdaraq əmin-amanlıq şəraitində yaşayırlar. Və bütün bu proseslər bir daha göstərir ki, dövlətimizin apardığı uğurlu daxili, xarici siyasət bir məqsədə – Azərbaycan xalqının rahat, xoşbəxt və sülh içində yaşamasına xidmət edir. Prezident İlham Əliyevin sentyabrın 14-də Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşündə dediyi kimi: ***"Bu gün bütün dünya Azərbaycan xalqını haqlı olaraq müzəffər xalq kimi tanıyır. 44 gün və bir gün – heç bir ölkə son 80 il ərzində belə mütləq, tam və ədalətli qələbə qazanmamışdır. Bununla fəxr edirik. Fəxr edirik, necə ki müharibədə döyüşmüşük, vuruşmuşuq, eləcə də sülh şəraitində qurub-yaradırıq. Ermənilər bizim torpaqlarımızı viran qoyublar. Sizin yaşadığınız kənd və şəhərləri yerlə-yeksan etmişdilər. Özlərinin yaşadıqları şərait elə idi ki, necə deyərlər, özünə hörmət edən insan heç vaxt orada yaşamazdı. Amma görün, biz beş il ərzində şəhərlər, kəndlər, körpülər, tunellər, su anbarları, elektrik stansiyaları qurmuşuq. Yəni burada – Qarabağda və Zəngəzurda gedən quruculuq dünyanın heç bir yerində yoxdur. Əsas odur ki, Azərbaycan xalqı rahat yaşasın, xoşbəxt yaşasın, sülh içində yaşasın".***

**"Şərq qapısı"**




## Prezidentin azad olunmuş ərazilərə səfərləri xalqımıza böyük güc və inam verir

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 14-15-də işğaldan azad olunmuş ərazilərə səfərləri hər birimizin böyük sevincinə səbəb olub. Prezidentin Xocavənd, Xocalı, Xankəndi səfərləri həm bölgələrin dirçəlişini, həm də xalqın Böyük Qayıdış arzusunun gerçəyə çevrildiyini göstərir".

Bu sözləri "Şərq qapısı"na müsahibəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aynur Babayeva deyib.

Deputat qeyd edib ki, Prezident İlham Əliyevin işğaldan azad olunmuş torpaqlara ardıcıl səfərləri xalqımız üçün böyük mənəvi güc və qürur mənbəyidir: "Bu səfərlər bir daha təsdiqləyir ki, Azərbaycanın Müzəffər Ali Baş Komandanı yalnız torpaqları işğaldan xilas etməklə kifayətlənmədi, həm də həmin ərazilərdə yeni həyat qurmaq üçün möhkəm təməl qoydu".

Onun sözlərinə görə, bu gün Hadrut, Qırmızı Bazar qəsəbələri və Sos kəndlərində aparılan abadlıq işləri dövlətin gücünü və xalqın birliyini əks etdirir: "Şəhərlərimiz, kəndlərimiz bərpa olunur, yollar salınır, məktəblər, sosial obyektlər istifadəyə verilir. Bütün bunlar Böyük Qayıdışın reallığa çevrildiyini göstərir. Bu proses gələcək nəsillərə əsl dövlətçilik dərsi kimi qalacaq".

Aynur Babayeva vurğulayıb ki, Naxçıvanda da bu sevinc və qürur dərin hiss olunur: "Hər bir azərbaycanlı üçün fəxrdir ki, dövlətimizin qüdrəti və Ali Baş Komandanın qətiyyəti sayəsində qazanılan zəfər bu gün həyatın bütün sahələrində öz bəhrəsini verir. Bu, xalqın rifahına, ölkəmizin sabahına hesablanmış möhtəşəm inkişaf yoludur".



# Biz buradayıq, qədim Azərbaycan torpağı olan XANKƏNDİDƏ

Yenə həmin gün gəldi, Xankəndi Şəhəri Günü. İllərlə həsrətlə gözləmişdik bu günü. İllərlə xanın kəndi düşmənin vəhşiliyi ilə dağıdılmış, milli kimliyimiz, tariximiz dəyişdirilməyə çalışılmışdı. Amma düşmən nə qədər çalışsa da, hətta sovet dönəmində şəhərin adı qaniçən Stepanın adı ilə adlandırılsa belə, tarixi köklər "Mən azərbaycanlıyam", – deyir, haray salırdı. ***"Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm"***, – deyən dövlət başçısı 44 günlük savaşda göstərdiyi səbir və iradəni antiterror əməliyyatında da göstərdi və cəmi 23 saatda ordumuz öz işinin öhdəsindən yenə layiqincə gəldi. Bəli, Azərbaycan dövləti özü "dəmir yumruğ"unu lazım gələn yerdə düşmənin başına çaxır və ona bu yerlərin əbədi sahibinin kim olduğunu sübut edir. 2023-cü il sentyabrın 19-20-də Azərbaycan üçtərəfli Bəyanatın müddəalarını təmin etmək, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısını almaq məqsədilə Ermənistan silahlı qüvvələrinin terror birləşmələrini tərk-silah etməyi vacib saydı. Və məhz buna görə onların hərbi infrastrukturunu zərərsizləşdirmək, konstitusiya quruluşunu bərpa etmək məqsədilə lokal xarakterli antiterror tədbirləri həyata keçirildi. Və biz xalq olaraq 44 gündə ordumuzla qürur duyduğumuz kimi sentyabrın 19-da baş tutan və cəmi 23 saat 43 dəqiqə ərzində uğurla başa çatan anti-terror əməliyyatında iştirak edən hərbçilərimizlə də qürur duyduq.

Həmin gün bir daha sevinc yaşadıq. Vətənimizin suverenliyi bərpa edildi və bir daha sübut etdik ki, cənab Prezidentin dediyi kimi ***"Heç kim bizim iradəmizə təsir edə bilməz. Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz"***. Xankəndi işğaldan azad edildikdən sonra burada keçirilən zəfər paradı 30 il davam edən işğal dövrünün əsas hədəfi olan "Azərbaycan Bayrağının Qarabağda, o cümlədən Şuşada, Xankəndidə dalğalanacağı gün uzaqda deyil" çağırışının artıq reallığa çevrildiyini bir daha sübut etdi. Ordumuz, milli birliyimiz və Ulu Öndər yolunun davamçısının siyasəti ilə qələbə bayrağı ilə bəzənən Xankəndi qələbənin simvoluna çevrilib. Bir vaxtlar buranı özünə paytaxt edən separatçı rejimin nazirləri isə öz istəklərinə uyğun olaraq Bakıda çay içir. Dövlət başçısının da dediyi kimi: ***"Onlar Bakıya gəlmək istəyirdilər, onlar bizi hədələyirdilər, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq, haqlı çıxdılar. Onların tankları Hərbi Qənimətlər Parkındadır. Onlar deyirdilər ki, Bakıya gəlib çay içəcəklər. Burada da haqlıdırlar. İndi çay içirlər, istintaq təcridxanasında. Özünü "prezident" adlandırmış üç təlxək bax, burada oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, bizi təhqir edirdi. Biz isə təmkinlə hər şeyə yanaşdığımız kimi, bu məsələyə də təmkinlə və səbirlə yanaşırdıq. Çünki bilirdik ki, biz buraya gələcəyik"***.

Nüfuzlu tədbirlərə ev sahibliyi edən Xankəndidə son iki ildə aparılan quruculuq işləri şəhərin tarixinin yeni səhifəsini yazır. Bu qədim Azərbaycan torpağının ev sahibliyi etdiyi tədbirlər qlobal siyasi gündəmdə təkcə mühüm beynəlxalq hadisə deyil, eyni zamanda Ermənistanın 30 il davam edən işğalının dağıntılarından bərpa-quruculuq dövrünə qədəm qoyan bir şəhərin dirçəlişinin rəmzidir. Artıq bu cənnətməkanda beynəlxalq tədbirlər keçirilir, Qarabağdan, Şərqi Zəngəzurdan dünyaya mühüm mesajlar ünvanlanır. Qələbədən sonrakı son beş ilin qürurverici hadisələrindən biri azadlığına qovuşmuş torpaqlarımızın beynəlxalq tədbirlər üçün uyğun və ideal məkan olmasıdır.

Həmin görüşlərdən birində dövlət başçısının çıxışında ***"İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə iştirak etmək üçün qədim Azərbaycan torpağı olan Qarabağa, Xankəndiyə xoş gəlmisiniz!"*** müraciəti hər birimizin qəlbində qürur hissi yaratdı. Yaxın günlərdə Prezident İlham Əliyevin Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak etməsi də bir daha sübut etdi ki, Qarabağ Universiteti Azərbaycanın nüfuzlu ali təhsil ocaqlarından biri olacaq və gələcəyin peşəkar kadrlarını yetişdirəcək.

Bu dünyada heç bir qüvvə ürəyi Vətən eşqi ilə dolu əsgərin və ömrünü xalqına həsr etməyə and içmiş bir Sərkərdənin qarşısında dayana bilməz. Necə ki bu xalqın qarşısında dayana bilmədilər. Biz öz torpaqlarımızı azad edib ona sahib çıxdıq. Ən qürurverici hal isə ondan ibarətdir ki, bu torpaq uğrunda canından keçənlərin sırasında ömrünün ən gözəl illərini Vətənə həsr edən gənc hərbçilər var idi. Onlar gənc ömürlərini Vətənə qurban verməklə bu dövləti özləri ilə yaşıd gənclərə əmanət etdilər. Bu gün həmin gənclərin səsi Xankəndidən, Qarabağ Universitetindən gəlir. İşğaldan azad edilmiş Xankəndidə yaradılan bu təhsil ocağını ən yüksək bal toplayaraq seçən gənc də bu torpaq üçün döyüşməyə və can verməyə hazır olan gənc qədər vətənpərvərdir. Məhz buna görə bu torpaq əbədi olaraq bizim olacaq. Çünki bizim damarımızdan qanla birlikdə Vətən sevgisi axır.

# Xocalıya əbədi bahar qayıtdı

***Biz heç vaxt o günləri unutmayacağıq***

Həmin qanlı gecəyə kimi çox adamın tanımadığı kiçik, sakit, gözəl bir şəhər idi Xocalı. Soyuq bir fevral gecəsi elə bir faciə baş verdi ki, bir anda bütün Yer kürəsinin damarında axan qan dondu. O gecə xocalılıların ürəklərinə nəinki 30 il, hətta əsrlər keçsə belə, sönməyən od vuruldu. Həmin gündən sonra ana harayı ucaldı Vətənimizin hər yerində. Düz 28 il biz o ananın harayını dinlədik. Xəyalları yarım qalan gənc qızların, adsız məzarda uyuyan nişanənin, taleyinə itkinlik yazılan insanlarımızın harayını eşitdik. Qoca dünyadan ədalət gözlədik 28 il. Amma biz yanılmışdıq, düşmənə sülh əlimizi uzatsaq da, o bu əli qanlı caynağı ilə sıxıb yenidən ağrıtdı, yenidən yaraladı. Yaramız qaysaq qoymağa macal tapmamış yenidən qanadıldı. Və həmin gün – 27 sentyabr günü Azərbaycan Ordusunun səbir kasası daşdı. Soyuq bir payız gecəsi Azərbaycan əsgərinin qəlbinin Vətən sevgisindən doğan nuru ilə işıqlandı. Və biz dövlət-xalq-ordu birləşərək qələbə qazandıq. Həmin gün Xocalı sakinlərinin qanayan yarası az da olsa, sağaldı. 2023-cü ilin sentyabrında isə illərdir, üzü gülməyən xocalıların üzündə təbəssüm yaratdı Azərbaycan əsgəri. Həmin gün azadlığa qovuşan Xocalıda illərdir, narahat dolaşan ruhlar da şad oldu. "Xocalı azaddır" deyiləndə ürəkdən bir ah çəkdi bütün Azərbaycan. Xocalıların qisası qiyamətə qalmadı. İgid oğullarımız qiyamətə saxlamadı bu qisası. Biz artıq Xocalıya qayıdırıq. Soyuq bir qış gecəsində qarın üzərində düşən qan izləri ilə çıxarıldığımız Xocalıya əbədi bahar qayıtdı...

***Xocalıya həyat qayıtdı...***

İlk köç öz yurduna, bir vaxtlar ahımızın göylərə qalxdığı bu torpağa, qəlbi ağrıdan buzlaşmış Xocalıya çatanda bu yurda əbədi bahar qayıtdı. İnsanların isti nəfəsi qayıtdı. Artıq Ballıcada, Xanyurdunda, Təzəbinədə, Xocalı şəhərində yaşayan sakinlər azad Xocalıda yaşamağın qüruru ilə ömür sürür. Ölkə başçısının Xocalıya hər səfəri və sakinlərlə görüşməsi yaddaşlara həkk olunur. Hər kəsə diktə edir ki, biz bu torpaqların əbədi sahibiyik. İnsanların öz yurduna qayıtması rayon ərazisində insanların məşğulluğunun təmin edilməsi üçün görülən işlər yeni-yeni layihələrin həyata keçirilməsi böyük qayıdışı sürətləndirməklə yanaşı, insanların dövlətinə inamını artırır. Yaxın günlərdə, Xocalı Şəhəri Günü ərəfəsində bölgəyə səfər edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı rayonunun Badara kəndində Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşüb. Həmin səmimi görüşdə dövlət başçısı deyib: ***"Uzun illər köçkün həyatı yaşamış insanlar ən gözəl şəraitə layiqdirlər. Mən xatırlayıram, o vaxt işğal dövründə köçkünlərlə çoxsaylı görüşlərimdə deyirdim ki, sizin üçün dövlət şərait yaratmağa çalışır və biz bunu etmişdik. Təqribən, 300 minə yaxın keçmiş köçkün dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilmişdi. Ancaq hər dəfə çadır şəhərciyinin açılışında deyirdim ki, bu, müvəqqəti yaşayış yeridir. Qarabağ azad olunandan sonra sizin üçün Qarabağda daha gözəl şərait yaradacağıq, o da oldu"***.

Rayonun Şuşakənd kəndinə səfər edən dövlət başçısı kəndin bugünkü vəziyyəti ilə tanış oldu, kəndə köçmüş Zaur Rzayevin evində olub, ailə üzvləri ilə söhbət edib. Qeyd edək ki, indiyədək kəndin sosial infrastrukturunun qurulması istiqamətində bir sıra layihələr həyata keçirilib və bu istiqamətdə işlər davam etdirilir. Belə ki, mövcud elektrik xətləri, 3 su anbarı, subartezian quyusu bərpa olunub, transformator quraşdırılıb, sayğacləşdirmə işlərinə başlanılıb, qaz xətti çəkilib, mövcud içməli su şəbəkəsi təmir edilib. Bundan başqa, rabitə xətlərinin layihəsi təsdiqlənib və bu istiqamətdə hazırlıq işləri görülür. Kənddə bayraq meydanı salınıb, kənddaxili yollar asfaltlanıb. Şuşakənddə, ümumilikdə, 263 fərdi ev var. Onlardan 91-i yararsız, 172-si isə qismən yararlıdır. Bu evlərdən artıq 15-i istismara hazırdır. Bu ilin sonunadək daha 85 ev bərpa ediləcək. 2026-cı ildə isə 72 evin bərpası planlaşdırılır. Hazırda kəndə 15 ailə (59 nəfər) qayıdıb.

Badara kəndini də ziyarət edən dövlət başçısına məlumat verilib ki, kəndin ərazisində, ümumilikdə, 313 fərdi ev var ki, onlardan da 55-i yararsız, 258-i isə qismən yararlıdır. Artıq 15 fərdi ev bərpa olunub. Cari ilin sonunadək 115, gələn il isə 128 evin bərpası planlaşdırılır. Artıq 14 ailə (55 nəfər) kəndə köçüb.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı rayonunun Daşbulaq kəndində 13 hektar sahədə salınmış tut bağında olub. Bildirək ki, bu ilin oktyabr-noyabr aylarında əlavə 150 hektar sahədə damcılı suvarma sisteminin tətbiqi və təxminən, 1,5 milyon tut tinginin əkilməsi, klaster modeli əsasında tut bağının salınması, ətrafda kümxanaların qurulması, ipəkqurdunun bəslənməsi, yaş barama istehsalı, həmçinin məhsulun emal prosesinin həyata keçirilməsi nəzərdə tutulur. Burada 25 nəfər daimi işlə təmin olunub. Mövsümi işlərə isə 750 nəfər cəlb ediləcək. Daşbulaq kəndində də olan ölkə başçısına məlumat verilib ki, bu kənddə 195 ev var. Onlardan 39-u yararsız, 156-sı isə qismən yararlıdır. Artıq 15 ev bərpa edilib. Bu ilin sonunadək 58, gələn il isə 83 ev istismara hazır olacaq. İndiyədək kəndə 14 ailə (72 nəfər) köçüb.

Seyidbəyli kəndini də ziyarət edən ölkə başçısına məlumat verilib ki, kənddə sakinlərin rahat yaşaması üçün hər cür şərait yaradılıb, 30 kilometr uzunluğunda mövcud elektrik xətti bərpa olunub, 2 ədəd transformator quraşdırılaraq sayğaclaşdırma işlərinə start verilib. Magistral qaz xətləri çəkilib, 5,7 kilometr uzunluğunda mövcud qaz xətti, həmçinin su anbarı, subartezian quyusu bərpa edilib, içməli su şəbəkəsi yenidən qurulub. Kənddə bayraq meydanı salınıb, kənddaxili yollar asfaltlanıb. Seyidbəyli kəndində 140 ev var ki, onlardan da 22-si yararsız, 118-i isə qismən yararlıdır. Artıq 10 ev bərpa edilib. Bu ilin sonunadək 44, 2026-cı ildə isə daha 64 ev istismara hazır olacaq. İndiyədək kənddə 9 ailə (31 nəfər) köçüb.

Bir neçə il Xocalı sakinlərinin bir qisminin məskunlaşdığı Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində onlarla birlikdə yaşamaq qismət olub mənə. Şəhər üçün son damla qanına kimi döyüşən polis zabiti Əli, həyat yoldaşını rayonun müdafiəsində itirən Alimə xala, həmin qarlı gecədə atası şəhid olan, cəmi 7 yaşı olsa da, qarlı yollarda dözüm göstərib ayaqyalın Ağdama çatan kiçik qız Aliyə, hər dəfə Xocalı deyəndə gözləri dolan Sumayə nənə. Xocalının dəhşətini görüb yaşayan insanlardan bir neçəsi. Onlar bu ağır dərdlə bərabər, yurd, torpaq dərdi yaşasalar da, yenə dözdülər səbir və inamla. Bu gün xalqımıza qürurunu qaytaran ordumuza və Ali Baş Komandanımıza minnətdardırlar. Bu gün şəhidlərin də ruhu şaddır. Çünki onların azad etdiyi torpaqlara həyat qayıdır. 33 il əvvəl Xocalıdan ayaqyalın, soyuq, şaxtalı bir qış gecəsi ağlaya-ağlaya çıxan körpə qız uşağı Xocalıya alitəhsilli bir xanım kimi qayıdıb. Qalib xalqın qalib gələcəyinə Xocalı rayonunda, öz doğma məktəbində dərs deyir. Vaxtilə Xocalının müdafiəsində yaralanan polis əməkdaşı Əli Rəcəbovun xocalılı olub Xocalısız doğulub, böyüyən oğlu Rəşad Xocalıda polis əməkdaşı kimi dövlətimizi qoruyur. Alimə ana isə ömrü bitmədən ona torpağını qaytaran, şəhid həyat yoldaşının, ata, anasının məzarını düşmən tapdağından azad edən ordumuza dualar edir.

✍ **Ramiyə ƏKBƏROVA**

# Siyasi əlaqələrin zirvəsi:
## Azərbaycan-BƏƏ hərtərəfli strateji tərəfdaşlığı

Azərbaycan dövləti Ərəb ölkələri ilə həm mədəni, həm də siyasi-iqtisadi sahələrdə möhkəm təməllərə söykənən əlaqələrə malikdir. Respublikamız həmin coğrafiyada yerləşən, Ərəb Dövlətləri Liqasının üzvləri ilə həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində faydalı əməkdaşlıq edir. Bu nöqteyi-nəzərdən liqaya daxil olan ölkələrin, Azərbaycanın da üzvü olduğu Qoşulmama Hərəkatının, həmçinin İslam Əməkdaşlıq Təşkilatının üzvü olması məxsusi əhəmiyyət daşıyır. Respublikamız ərəb dünyasının aparıcı ölkələrindən olan Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrə də böyük önəm verir. Ötən il Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın ölkəmizə və bu il Prezident İlham Əliyevin BƏƏ-nə iki səfəri, keçirilən görüşlər dost və tərəfdaşlıq əlaqələrinin yüksələn xətlə inkişaf etdiyindən xəbər verir. Dövlət başçımızın cari ilin iyul ayında reallaşdırdığı səfər çərçivəsində ölkələrimiz arasında hərtərəfli iqtisadi əməkdaşlıq haqqında Saziş imzalanıb ki, bu sənəd iqtisadi əlaqələrimizə yeni bir məzmun qazandırıb. Sentyabrın 16-da Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana növbəti rəsmi səfəri də ölkələrarası yeni əməkdaşlıq mühitinin formalaşdırılması, müxtəlif sahələrə dair perspektivlərin dəyərləndirilməsi baxımından zəngin keçdi, mühüm mesajları ilə yadda qaldı.



Səfərin detallarına toxunmadan onu diqqətə çəkmək olar ki, regionda baş verən müxtəlif ictimai-siyasi proseslərə rağmən Azərbaycanla BƏƏ arasında diplomatik əlaqələr hər zaman yüksək səviyyədə olub. Birləşmiş Ərəb Əmirlikləri 1991-ci il dekabrın 26-da Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdəndir. Bir il sonra isə hər iki respublika arasında diplomatik münasibətlər qurulub və 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə iki ölkə arasında münasibətlər dostluq zəminində yüksək trayektoriya qazanıb. BƏƏ daim Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə öz dəstəyini ifadə edib. Sentyabrın 16-da Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın məhz işğaldan azad olunan ərazilərə rəsmi səfər etməsi bu baxımdan olduqca təqdirəlayiq məqam, mühüm diplomatik mesajdır. Liderlərin Şuşada təşkil olunan görüşü zamanı Prezident İlham Əliyev də məhz diqqəti bu nüansa yönəltdi, Azərbaycan-BƏƏ əlaqələrinin dostluq, qardaşlıq üzərində qurulduğunu diqqətə çatdırdı: ***"Bugünkü səfəriniz xüsusi əhəmiyyət daşıyır. Çünki Siz Qarabağa, işğaldan azad edilmiş torpaqlara səfər edirsiniz və bu bizi, bütün Azərbaycan xalqını çox məmnun edir. Bizim əlaqələrimiz qardaşlıq, dostluq üzərində qurulub".***




Azərbaycanla BƏƏ arasındakı yüksək siyasi münasibətlərə, dialoqlara adekvat olaraq ölkələrimiz qarşılıqlı maraqdoğuran sahələr üzrə iqtisadi əlaqələri, ticarət imkanlarını genişləndirirlər. 2017-ci ildən bəri Dubay şəhərində Azərbaycanın ticarət nümayəndəliyi, 2019-cu ildən isə yerli məhsullarımızın BƏƏ və Körfəz ölkələrində satışını təşkil etmək və "Made in Azerbaijan" brendini BƏƏ bazarında daha çox tanıtmaq üçün "Azərbaycan Ticarət Evi" fəaliyyət göstərir. Bundan başqa, Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiya da iqtisadi əməkdaşlığının genişləndirilməsi baxımından mühüm işlər həyata keçirir. Ümumilikdə, demək olar ki, iki ölkə arasında işgüzar əlaqələr lazımi səviyyədədir, həm iri sahibkarlar, həm də KOB-lar arasında tərəfdaşlığın genişləndirilməsi istiqamətində fəaliyyət uğurlu nəticələr verməkdədir. Aparılan siyasi dialoqlar, iqtisadi məsləhətləşmələr, imzalanan sənədlər özünü ilbəil artan ticarət dövriyyəsində göstərir. Bildirmək yerinə düşər ki, bu ilin yanvar-avqust aylarında Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında ticarət əməliyyatlarının həcmi 104,6 milyon ABŞ dolları təşkil edib. Bu da 2024-cü ilin eyni dövründəki göstərici ilə müqayisədə 45,2 milyon ABŞ dolları və ya 76,1 faiz çoxdur. Hesabat dövründə BƏƏ ilə ticarət əməliyyatları Azərbaycanın ümumi ticarət dövriyyəsinin 0,33 faizi həcmində olub. Birləşmiş Ərəb Əmirlikləri Azərbaycana ən çox investisiya yatıran ölkələrdən biri kimi də iqtisadiyyatımızın güclənməsində, rəqabətqabiliyyətli məhsul istehsalında önəmli pay sahibidir. Hazırda Azərbaycanda BƏƏ investisiyalı 350-dən çox kommersiya qurumu qeydiyyatdadır.

Ölkələrarası iqtisadi əlaqələrin inkişafında enerji sektoru xüsusi çəkiyə və rola malikdir. Bu da təsadüfi deyildir. Çünki zəngin neft-qaz potensialı ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan ilbəil bu sahədə imkanlarını daha da şaxələndirir və eyni zamanda da elektrik enerjisi, əsasən də, "yaşıl enerji"nin önəmli təchizatçısına çevrilmək təşəbbüsləri ilə çıxış edir. Bu mənada, Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasının – Qaradağ Günəş Elektrik Stansiyasının məhz BƏƏ şirkətinin investisiyası hesabına tikilib istifadəyə verilməsi də olduqca uğurlu, faydalı əməkdaşlıqdan xəbər verir. Nəzərə alsaq ki, Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru "yaşıl enerji zonası" elan edib, bu baxımdan Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın məhz işğaldan azad olunan torpaqlara səfəri xüsusi əhəmiyyət daşıyır. Gələcəkdə Qarabağda, Şərqi Zəngəzurda qeyri-neft sekoru, sənaye, "yaşıl enerji" üzrə yeni layihələrin icrasında BƏƏ şirkətlərinin yaxından iştirakı bölgədə iqtisadi həyatın yüksəlişinə güclü təsir göstərəcək. Ümumilikdə, bu səfər zamanı imzalanan sənədlər sosial, nəqliyyat, ənənəvi enerji, "yaşıl enerji", media, turizm, təhsil, ticarət və digər sahələrə dair əməkdaşlıqların dərinləşməsini hədəfləyir. Mübadilə edilən 14 sənədin hər biri birgə səmərəli fəaliyyət üçün mühüm perspektivlər açır. Bu xüsusda Azərbaycan-BƏƏ Birgə Biznes Şurasının yaradılmasını da diqqətə çəkmək olar ki, bu sayədə gələcəkdə ölkələrdə kiçik və orta sahibkarlığın inkişafına, investisiya sahəsində sahibkarlığın rolunun güclənməsinə, əhatə dairəsinin genişlənməsinə təkan verəcək. Ən önəmli sənəd isə "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə"dir ki, bununla da ölkələrimiz arasında əlaqələr daha yüksək mərhələyə daşınacaq. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Bu gün imzalanmış çoxsaylı sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq. İmzalanmış hər bir sənəd böyük əhəmiyyət daşıyır. Onların arasında xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu bizim siyasi əlaqələrimizi ən yüksək zirvəyə qaldıran bir sənəddir".***

**"Şərq qapısı"**



# Səlahiyyətli nümayəndə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının sədr müavini ilə görüşüb







Sentyabrın 12-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının sədr müavini və Türk Dövlətləri ilə Əlaqələr Baş İdarəsinin rəhbəri Kürşad Zorlunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründən başlayaraq geniş vüsət alan Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bu gün də ölkə başçılarının səyləri ilə davamlı inkişafda olduğu məmunluqla ifadə edilib, Naxçıvanın Türk dünyası üçün önəmi xüsusi vurğulanıb.

Bölgəyə sülh və rifah gətirəcək Zəngəzur dəhlizinin reallaşması fonunda əlaqələrin daha da genişlənməsi imkanları nəzərdən keçirilib, Naxçıvanda nəqliyyat, logistika və mədənçilik sahələri üzrə birgə investisiya layihələrinə dair perspektivlər müzakirə edilib.

Görüşdə qarşılıqlı xatirə hədiyyələri təqdim edilib, xatirə fotoları çəkdirilib.

# Naxçıvanda yerli sahibkarların iştirakı ilə müşavirə keçirilib



Sentyabrın 15-də Naxçıvanda yerli sahibkarların iştirakı ilə müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 2025-ci ilin yanvar-avqust ayları üzrə muxtar respublikada əldə olunan makroiqtisadi göstəriciləri müşavirə iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, qeyd olunan dövrdə ümumi daxili məhsul istehsalı 1 milyard 64 milyon 598 min 400 manat olub. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 faiz artıq göstəricidir. Hesabat dövründə 343 milyon 6 min 900 manatlıq sənaye məhsulu istehsal edilib ki, bu da 2024-cü ilin müvafiq dövründəki göstəricini 19,1 faiz üstələyir. Həmçinin iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala bir il öncəki göstəricidən 42,4 faiz çox, 122 milyon 629 min 300 manat vəsait yönəldilib.

Sosial və iqtisadi sahələrin digər sferalarında da mühüm artımların olduğunu bildirən səlahiyyətli nümayəndə vurğulayıb ki, bu göstəricilər sahibkarlar üçün əlverişli mühitin formalaşdığını, rəqabətədavamlı məhsul istehsalına və xidmətlərin keyfiyyətinin artırılmasına mühüm şərait yaradıldığını təsdiq edir.

Fuad Nəcəfli bildirib ki, muxtar respublikada fəaliyyət göstərən sahibkarlar üçün daha əlverişli və perspektivli mərhələyə qədəm qoyuruq. Dövlət başçımızın qətiyyəti sayəsində regionda proseslərin normallaşması istiqamətində əldə olunan razılaşma, Zəngəzur dəhlizinin reallaşması, nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası Naxçıvanı mühüm logistika mərkəzinə və investisiya zonasına çevirəcək. Yerli sahibkarlar yaranacaq bu imkanlara, o cümlədən yeni investisiya mühitinə hazır olmalı, rəqabətə davam gətirəcək addımlar atılmalıdır. Bunun üçün isə növbəti mərhələdə daha geniş perspektivlər açılır. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq Naxçıvan Muxtar Respublikasında azad iqtisadi zonanın yaradılması istiqamətində tədbirlər görülür. 2026-cı ildən icrası nəzərdə tutulan layihəyə uyğun olaraq sahibkarlar 10 il müddətində tətbiq olunacaq güzəştlərdən yararlana biləcəklər. Həmçinin muxtar respublika ərazisində heyvan xəstəliklərindən azad zonaların yaradılması istiqamətində prosedurların tətbiqinə başlanacaq. Bu təşəbbüs bölgədə heyvandarlıq məhsullarının keyfiyyətinin artırılmasına və ixrac imkanlarının genişləndirilməsinə əlverişli şərait yaradacaq.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov, Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası idarə heyətinin sədri Vüqar Abbasov, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev çıxış edərək tətbiq olunacaq gömrük və ticarət güzəştlərini muxtar respublikada sahibkarlığın inkişafına göstərilən mühüm dəstək kimi dəyərləndiriblər.

Sahibkarlar çıxış edərək muxtar respublikada azad sahibkarlıq mühitinin formalaşmasına, bu istiqamətdə şəffaflığın təmin olunmasına və göstərilən dəstəyə görə minnətdarlıqlarını bildiriblər.

Müşavirədə sahibkarların təklifləri dinlənilib, logistikanın subsidiyalaşdırılması, dövriyyə vəsaitlərinin maliyyələşdirilməsinə maliyyə institutlarının cəlbi, dövlət satınalmalarında yerli sahibkarlara dəstək göstərilməsi istiqamətində görüləcək işlər və mövcud problemlər müzakirə edilib.

# Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib

Sentyabrın 18-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və baş prokuror Kamran Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.




# Ulu Öndər Heydər Əliyevin xatirəsi anılıb

Sentyabrın 18-də Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədov Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və ədliyyə naziri Fərid Əhmədov Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsini ziyarət edib, önünə tər güllər düzüb, xatirəsinə dərin ehtiramlarını bildiriblər.





# Naxçıvanda Milli Musiqi Günündə "O olmasın, bu olsun" musiqili komediya təqdim olunub

Sentyabrın 18-də – Milli Musiqi Günündə Üzeyir Hacıbəyli XVII Beynəlxalq Musiqi Festivalı çərçivəsində Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında "O olmasın, bu olsun" musiqili komediya təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il fevralın 3-də Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi münasibətilə imzaladığı Sərəncama uyğun olaraq Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı 143-cü teatr mövsümünə Üzeyir Hacıbəyli yaradıcılığına müraciət etməklə başlayıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli teatrın foyesində qurulmuş Milli Musiqi Gününə həsr olunmuş sərgi ilə tanış olub. Sərgidə dahi bəstəkar Üzeyir Hacıbəylinin, Azərbaycan musiqi

ardı 7-ci səhifədə







mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuş incəsənət xadimlərinin, eləcə də Naxçıvan Dövlət Milli Dram Teatrının fəaliyyətini əks etdirən eksponatlar nümayiş etdirilib.

Sonra dahi bəstəkar Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyası əsasında səhnələşdirilmiş tamaşa təqdim edilib.

Tamaşanın quruluşçu rejissoru, teatrın direktoru və baş rejissoru Mir Qabil Əkbərov, rejissoru Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyevdir. Quruluşçu rəssam Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səyyad Bayramov, musiqi rəhbəri və dirijor Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyevin təqdimatında yeni və orijinal quruluşda səhnələşdirilən tamaşada Xalq artistləri Rza Xudiyev, Şirzad Abutalıbov, Rövşən Hüseynov, Azərbaycan Respublikasının Əməkdar artistləri Nazlı Hüseynquliyeva, Vidadi Rəcəbli, Əbülfəz İmanov, Kəklik Novruzova, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Günay Qurbanova, eləcə də digər təcrübəli və gənc istedadlar rolları məharətlə ifa ediblər.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli tamaşa bitdikdən sonra səhnə arxasında yaradıcı heyətlə görüşüb, tamaşa ilə bağlı xoş təəssüratlarını çatdırıb. Fuad Nəcəfli kollektivin Milli Musiqi Günündə Üzeyir Hacıbəyli yaradıcılığına müraciət etməsini uğurlu seçim kimi dəyərləndirib, heyətə yenilikçi ruhlu səhnə həllinə görə təşəkkür edib, yeni yaradıcılıq uğurları arzulayıb.

## Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası sədrinin müavini Kürşad Zorlu ilə görüşüb



Sentyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası sədrinin müavini, Türk Dövlətləri ilə Əlaqələr Baş İdarəsinin rəhbəri Kürşad Zorlunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmlənməsi istiqamətində Ulu Öndər Heydər Əliyevin Naxçıvan dövrü siyasi fəaliyyətinin önəmi vurğulandı, bu gün Azərbaycan və Türkiyə Respublikası prezidentlərinin birgə səyləri ilə ölkələrimiz arasındakı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi diqqətə çatdırıldı, Zəngəzur dəhlizinin açılması perspektivində Naxçıvanın bu əlaqələrdəki əhəmiyyəti qeyd olundu.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda Bilik Günü qeyd olunub

*15 sentyabr – Bilik Günündə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov və Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev Naxçıvan şəhərində fəaliyyət göstərən bir neçə ümumi təhsil müəssisəsində olub.*



Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına tam orta məktəbdə, Naxçıvan Qızlar Liseyində, Naxçıvan şəhər 5 nömrəli və Naxçıvan Qarnizonu tam orta məktəblərində müəllimlər, şagirdlər və onların valideynləri ilə görüşən rəsmi şəxslər yeni dərs ilinin başlanması münasibətilə kollektivlərə təbriklərini çatdırıb, məktəblilərə təhsillərində uğurlar arzulayıblar.

Görüşlərdə məktəblilərin Vətənə sədaqət, milli-mənəvi dəyərlərə bağlılıq və müasir biliklərə yiyələnmələrinin önəmi vurğulanıb, valideynlərə övladlarının təhsil aldığı məktəblərlə sıx əlaqələrin qurulmasının əhəmiyyəti diqqətə çatdırılıb.

Qeyd edək ki, Bilik Günü münasibətilə müəssisələrdə təhsil alan şəhid övladları ilə də görüşlər təşkil olunub.

Məlumat üçün bildirək ki, 2025-2026-cı tədris ilində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ümumi təhsil müəssisələrində 50 min 500 şagird təhsil alacaq. Yeni tədris ilində 3007 uşaq məktəbəhazırlıq qruplarına, 3822 şagird isə birinci siniflərə qəbul olunub.

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində 15 sentyabr – Bilik Günü və yeni tədris ilinin başlanması münasibətilə təntənəli mərasimdə kollecə yeni qəbul olunmuş kursantlar Vətənə sədaqət andı içiblər.

Sonra Naxçıvan Hərbi Kollecinin rəisi, polkovnik-leytenant Yaşar Hüseynov çıxış edərək Milli Müdafiə Universitetinin rektoru, general-mayor Gündüz Əbdülovun 15 sentyabr – Bilik Günü münasibətilə təbrik məktubunu şəxsi heyətə çatdırıb.

Mərasimdə kollecə yeni qəbul olunmuş kursantın valideyni və yüksək nəticə göstərərək kollecə qəbul olan kursant çıxış ediblər.



Sonda şəxsi heyət yeni tədris ilinə start verib.

Naxçıvan Dövlət Universitetində keçirilən tədbiri giriş sözü ilə universitetin rektoru Elbrus İsayev açaraq professor-müəllim heyətini və tələbələri yeni tədris ilinin başlanması münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb.

Rektor ölkədə təhsil siyasətinin uğurlu icrasından söz açıb, bildirib ki, son illərdə qazanılan bütün nailiyyətlər ölkə başçısı cənab İlham Əliyevin təhsilin inkişafı ilə əlaqədar imzaladığı proqramlar çərçivəsində həyata keçirilən islahatlar və dövlətimizin bu sahəyə göstərdiyi xüsusi qayğının nəticəsidir.



Tədbirdə birinci kurs tələbələri adından 2025-2026-cı tədris ili üzrə keçirilən qəbul imtahanlarında 688 bal toplayıb NDU üzrə ən yüksək nəticəni əldə edərək Memarlıq və mühəndislik fakültəsinin ikili diplom proqramı üzrə tədrisi ingilis dilində Kompüter mühəndisliyi ixtisasına qəbul olan abituriyent Cəmilə Babayeva, valideynlər adından iqtisad üzrə fəlsəfə doktoru Cavadxan Qasımov çıxış ediblər.

Sonra universitetin tanıtım filmi nümayiş olunub və xatirə fotosu çəkdirilib.

## Sosial qayğıya ehtiyacı olan uşaqlara məktəbli geyimləri və dərs ləvazimatları təqdim edilib

Sentyabrın 13-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin dəstəyi, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə aztəminatlı ailələrdən, o cümlədən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş, təkvalideynli, sağlamlıq imkanları məhdud, qazi övladı və çoxuşaqlı ailələrin uşaqlarına Bilik Günü ərəfəsində məktəbli geyimləri və dərs ləvazimatlarının təqdim olunması ilə bağlı tədbir keçirilib.



Tədbirdə çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev qeyd edib ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial rifahının yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır, onlara həm maddi, həm də mənəvi dəstək göstərilir. Eyni zamanda uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə müxtəlif mövsümi istirahət düşərgələri təşkil olunur.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxışında bildirib ki, ölkəmizdə uğurla həyata keçirilən dövlət uşaq siyasəti nəticəsində cəmiyyətin bütün təbəqələrindən olan uşaqlara hərtərəfli diqqət və qayğı göstərilir. Muxtar respublikada da bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatının Humanitar məsələlər şöbəsinin müdiri Tarverdi Məmmədov isə vurğulayıb ki, uşaqların rifahı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Tədbirin sonunda uşaqlara məktəbli geyimləri və dərs ləvazimatları təqdim olunub. Bu təşəbbüs uşaqlar və valideynlər tərəfindən sevinclə qarşılanıb.

Qeyd edək ki, muxtar respublikanın digər rayonlarında da analoji tədbirlər keçirilib və ümumilikdə, 132 nəfər xüsusi kateqoriyadan olan uşağa məktəbli geyimləri və dərs ləvazimatları, 348 uşağa isə maddi yardım verilib.






## Naxçıvan şəhərində “Suverenlik yürüşü” keçirilib

Sentyabrın 18-də Naxçıvan şəhərində “Konstitusiya və Suverenlik İli” çərçivəsində möhtəşəm bir tədbir – “Suverenlik yürüşü” təşkil olunub. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü, Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı və Əlahiddə Ümumqoşun Ordunun dəstəyi ilə baş tutan yürüş Əlahiddə Ümumqoşun Ordunun Hərbi Orkestrinin müşayəti ilə Zəfər parkından başlayaraq şəhərin mərkəzi meydanında yerləşən Heydər Əliyev Muzeyinin qarşısına qədər davam edib. Keçirilən yürüşdə Heydər Əliyev adına Hərbi Liseyin və Naxçıvan Hərbi Kollecinin kursantları, tələbələr, gənclər, ümumtəhsil məktəblərinin şagirdləri və ictimaiyyət nümayəndələri fəal iştirak ediblər.

Yürüş iştirakçıları Azərbaycan Respublikasının Dövlət bayraqları ilə şəhərin mərkəzi küçələrində addımlayaraq dövlətin suverenliyi, müstəqilliyin qorunması və milli birliyin gücləndirilməsi istiqamətində həmrəylik nümayiş etdirib, şəhidlər və vətənpərvərlik haqqında şüarlar səsləndiriblər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixdə “Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında” imzaladığı Sərəncamla dövlətimizin suverenliyinin möhkəmləndirilməsi, milli dəyərlərin qorunması və cəmiyyətin bütün sahələrində müstəqillik prinsiplərinin inkişaf etdirilməsi ilə bağlı mühüm istiqamətləri müəyyənləşdirmişdir.

20 sentyabr – Dövlət Suverenliyi Günü müstəqilliyimizin dönməzliyini, ərazi bütövlüyümüzün bərpasını və xalqımızın sarsılmaz iradəsini təcəssüm etdirən tarixi gündür. Bu günün dövlət səviyyəsində qeyd olunması Azərbaycan dövlətçiliyinin yeni mərhələsinin başlanğıcını göstərir.

Bu gün biz artıq tam suveren dövlətik. Sərhədlərimiz toxunulmazdır, ərazilərimiz bütövdür, xalqımız isə azad və müstəqil gələcəyini öz əlləri ilə qurur. Dövlət Suverenliyi Günü bu həqiqətlərin rəsmi təsdiqi, xalqımızın tarixi yaddaşında əbədi yer alacaq milli qürur günüdür.

Yürüşün sonunda şəhərin mərkəzi meydanında iştirakçılar bir daha ölkənin gələcəyi naminə həmrəylik nümayiş etdirərək suverenliyin hər bir Azərbaycan vətəndaşı üçün müqəddəs dəyər olduğunu vurğulayıblar.







# Əcəmi Naxçıvani – daşların dili ilə danışan dahi

Əsrlər keçir, nəsillər dəyişir, amma dahi sənətkarların adı heç vaxt ölmür, daim yaşayır. Çünki sənət ölməz, dahilik unudulmazdır. Azərbaycanın şanlı tarixində elə şəxsiyyətlər var ki, onların adı da heç vaxt unudulmur. Bu şəxsiyyətlərin adı zamanın sərt küləklərinə sinə gərərək əsrləri aşır və gələcək nəsillərə bir mayak kimi işıq saçır. Onlar millətin yaddaşına, ruhuna çevrilirlər. Hər zaman yaşayacaq isimlərdən biri də əbədiyyətin memarı Əcəmi Əbubəkr oğlu Naxçıvanidir. Dahi memarın adı çəkiləndə dərhal Naxçıvanın göylərə ucalan türbələri, bu türbələr üzərində həkk olunmuş naxışlar, sanki əbədiyaşarlıq rəmzi olan möhtəşəm abidələr göz önünə gəlir.

Əcəmi Naxçıvaninin yaradıcılığı zamanın sınağından çıxmış bir ideya məktəbidir. Memarın inşa etdiyi Möminə xatun və Yusif Küseyir oğlu türbələri, sadəcə, memarlıq nümunəsi deyil, xalqın yaddaş kitabəsidir. Mədəniyyət salnaməsi olan bu abidələr, sadəcə, daş üstə daş qoymaq deyil, xalqımızın mənəvi dünyasının, düşüncə tərzinin, estetik zövqünün, fəlsəfəsinin, zəkasının simvoludur. Memar inşa etdiyi hər bir abidəyə ruh qatmışdır. Buna görə də həmin əsərlər əsrlərdir yaşayır. Əcəmi əsərləri bizə deyir ki, xalqı yaşadan onun mədəniyyəti, memarlığı, sənətidir. Memarın dahiliyi ondan ibarət idi ki, o daşların dilini bilir, onlarla danışırdı. Onun üçün hər bir daş, hər bir kərpic, hər bir naxış, hər bir fiqur sanki bir söz, bir cümlə idi. Əcəmi memarlığının ən mühüm xüsusiyyəti simvolizmdir. Onun inşa etdiyi abidələr üzərindəki hər bir fiqur, hər bir naxış kainatın harmoniyası, həyatın sonsuzluğu, Tanrıya olan sevgi, yaradıcı ruhun əbədiliyi kimi mesajlar verir. Əsrlər keçsə də, bu mesajlar hələ də bizə gəlib çatır. Əcəmi yalnız memar deyildi. O həm də bir filosof idi. Onun yaradıqları kainatın sirlərini, insan həyatının mənasını daşlara həkk edirdi. Memarın inşa etdiyi türbələrin çoxbucaqlı forması kainatın mükəmməl quruluşunu simvolizə edir. Türbələrin kərpiclərinin dövri düzülüşündə sonsuzluq ideyası, həyatın davamlılığı gizlənir. Əcəmi abidələri üzərindəki yazılar insanı düşünməyə, özünü tanımağa çağırır. Bu gün biz Naxçıvan küçələrində gəzərkən həmin abidələri görəndə fəxr edirik. Çünki onlar təkcə tarixin yadigarı deyil, həm də gələcəyimizə işıq tutan bədii bir yol xəritəsidir. Əcəmi memarlığı bizə “Sənət əbədidir, əsl yaradıcılıq zaman tanımır” mesajını verir. Əcəmi Naxçıvani təkcə Naxçıvanın deyil, bütün Türk-İslam dünyasının memarlıq dühasıdır. Bu monumental şəxsiyyət tarixə əbədi həkk olunmuşdur. Onun adı gələcək nəsillərə yaradıcılıq, zəka və əbədilik örnəyi kimi keçəcək. Əcəmi bizə öyrədir ki, memarlıq yalnız texniki peşəkarlıq deyil. Əsl memarlıq xalqın ruhunu daşlara köçürməkdir. Əcəminin banisi olduğu Naxçıvan memarlıq məktəbi həm sənət, həm də həyat məktəbidir. Bu məktəb bizə öyrədir ki, yaradıcı düşüncə olmadan heç bir əsər yaşaya bilməz. Sənətkarın əli ilə daş düzülə bilər, lakin onun ruhu daşlara hopmayınca abidə ölü olar. Dahi memarın əsərləri Azərbaycanın simvoluna çevrilib. Əcəminin şah əsəri sayılan Möminə xatun türbəsi xalqımızın gücünü, möhkəmliyini, gözəllik duyumunu əks etdirir. Bu gün biz müasir binalar ucaldırıq, şəhərlər salırıq. Amma beynimizdə bir sual meydana gəlir: görəsən bizim yaratdıqlarımız Əcəmi Naxçıvaninin inşa etdiyi əsərlər qədər möhkəm, dərin mənalı, əbədi olacaqmı? Dünya tarixində az sənətkar var ki, onun əsərləri əsrlər sonra da həm estetik, həm də mənəvi dəyərini qoruyub saxlamışdır. Əcəmi Naxçıvani bu nadir şəxsiyyətlərdəndir ki, onun əsərləri bu gün də diqqət mərkəzindədir, dəyərli elm adamlarının araşdırma mövzusudur. Bu səbəbdəndir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 22 may tarixli Sərəncamı ilə Möminə xatun türbəsi üzərində bərpa və konservasiya işləri aparılır. Ölkə başçısının 2025-ci il 18 sentyabr tarixli digər bir Sərəncamında isə memar Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması qərara alınmışdır. Bu, dövlət rəhbərinin Azərbaycan mədəniyyətinə, incəsənətinə növbəti qayğısının ifadəsi kimi hər birimizi ürəkdən sevindirir, bizə məxsus olanlara sevgi və ehtiramımızı daha da artırır.

**Brilyant CƏFƏRLİ**
*AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Memarlıq, şəhərsalma və abidələrin bərpası şöbəsinin elmi işçisi*







# Azərbaycanın dövlətçilik zirvəsi: suverenliyin və qələbənin təntənəsi



*Azərbaycan xalqının dövlətçilik tarixinə qızıl hərflərlə yazılmış 20 sentyabr – Dövlət Suverenliyi Günü hər birimiz üçün qürur, iftixar və milli kimliyimizin ən ali təcəssümü, əsrlərboyu azadlıq və istiqlal uğrunda mübarizə aparan xalqımızın iradəsinin, əzminin və mübarizəsinin məntiqi nəticəsidir.*

**Rauf CƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

Müstəqillik hər bir xalq üçün ən böyük nemət, ən ali dəyərdir. Azərbaycan xalqı da bütün dövrlərdə – istər işğal, istər məhrumiyyət, istərsə də sınaqlar qarşısında bu amalından dönməmişdir. 30 ilə yaxın davam edən işğala, beynəlxalq hüququn pozulmasına, faciələrə və soyqırımlara baxmayaraq, müstəqillik və dövlətçilik əzmimiz sınmadı, əksinə, daha da möhkəmləndi.

Suverenlik dövlətin mövcudluğunu təmin edən əsas amildir. Bu anlayış yalnız siyasi hüquq deyil, həm də milli kimliyin, xalqın öz taleyinə sahib çıxmasının göstəricisidir. Azərbaycanın müstəqil siyasət yürütməsi, daxili və xarici siyasətində sərbəst qərarlar qəbul etməsi, beynəlxalq aləmdə öz sözünü qətiyyətlə deməsi dövlət suverenliyinin əyani təzahürüdür.

Bu gün Azərbaycan dünyanın tanınmış və hörmət olunan dövlətləri sırasındadır. O da sirr deyil ki, bizimlə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı günü-gündən artır. Çünki biz artıq öz sərhədlərinə, öz ərazilərinə tam sahib çıxan, siyasi müstəqilliyini qoruyan güclü dövlətik.

44 günlük Vətən müharibəsində əldə olunan möhtəşəm Qələbə, ardınca Laçın nəzarət-buraxılış məntəqəsinin yaradılması, nəhayət, 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirləri Azərbaycan dövlətçiliyinin ən mühüm mərhələlərini təşkil edir. Bu tarixi hadisələr nəticəsində torpaqlarımız azad olundu, separatçıların kökü birdəfəlik kəsildi və dövlət suverenliyi tam bərpa edildi.

Qazandığımız Zəfər yalnız hərbi uğur deyildi, bu, xalqımızın yüz illərin həsrətinə son qoyan, milli ləyaqətini bərpa edən tarixi qələbəsi idi. Qəhrəman şəhidlərimizin canı, qazilərimizin qanı bahasına bərqərar olunan bu suverenlik hər bir azərbaycanlının ən müqəddəs əmanətidir və hər bir azərbaycanlı da bu əmanətə böyük ehtiram və sayğı ilə yanaşır.

Prezident İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli Sərəncamı ilə təsis edilən 20 sentyabr – Dövlət Suverenliyi Günü Azərbaycanın dövlətçilik tarixində yeni və böyük bir mərhələnin başlanğıcıdır. Bu gün həm də 44 günlük müharibənin, antiterror əməliyyatlarının və müstəqilliyimizin möhkəmləndirilməsinin təntənəsi kimi qeyd olunur.

Əminliklə deyə bilərik ki, dövlət başçımızın uzaqgörən siyasəti, xalqın birliyi və ordumuzun qüdrəti nəticəsində Azərbaycan artıq tam suveren, güclü və gələcəyə inamla addımlayan dövlətdir. Bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi də təsadüfi deyil. Bu qərar həm dövlətçiliyimizin hüquqi-siyasi dayaqlarını möhkəmləndirir, həm də milli kimliyimizin dünyaya təqdimatında mühüm rol oynayır.

Suveren dövlət yalnız keçmişini qoruya bilən, bu gününü möhkəmləndirən və gələcəyini inamla quran dövlətdir. Azərbaycan isə bu yolda böyük addımlar atır. İqtisadi yüksəliş, siyasi sabitlik, mədəni dirçəliş və beynəlxalq nüfuz – bütün bunlar suveren dövlətimizin parlaq gələcəyinin təminatıdır.

Bu gün Azərbaycan xalqı artıq bütöv ərazilərə, toxunulmaz sərhədlərə və tam suverenliyə sahibdir. İndi qarşıda duran əsas vəzifəmiz bu nailiyyətləri qorumaq, gücləndirmək və gələcək nəsillərə ötürməkdir.

20 sentyabr – Dövlət Suverenliyi Günü hər bir azərbaycanlıya məsuliyyət, qürur və inam aşılayır. Bu gün biz təkcə qələbələri deyil, həm də dövlətimizin möhkəm təməllər üzərində qurulmuş gələcəyini qeyd edirik.

Yaşasın müstəqil Azərbaycan!

Yaşasın əbədi və dönməz dövlət suverenliyimiz!

## Azərbaycan və Türkiyədən olan şəhid ailələri və qazilərlə İğdırda görüş keçirilib



Sentyabrın 16-da Türkiyənin İğdır vilayətində "Zəfərin ruhunda birləşənlər" adlı görüş keçirilib. Tədbirdə Türkiyə və Azərbaycandan olan şəhidlərin ailə üzvləri, yaxınları, eləcə də bir qrup qazi iştirak edib.

Görüşün təşkilinə İğdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Həmrəyliyini Yaşatma və Dəstəkləmə Dərnəyi, İğdır Azərbaycan Evi, Türkiyə Müharibə Əlilləri, Qaziləri və Şəhidləri Cəmiyyəti, həmçinin "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyi dəstək göstərib. Tədbir İğdır Mədəniyyət və Turizm İdarəsinin binasında baş tutub.

Proqram çərçivəsində Azərbaycanın işğaldan azad olunmuş torpaqları uğrunda mübarizədən bəhs edən film nümayiş etdirilib, şəhidlərin xatirəsinə dualar oxunub.

Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya çıxış edərək Türkiyə və Azərbaycan xalqlarının müstəqillik və bütövlük uğrunda mübarizəsindən, iki qardaş ölkə arasındakı qardaşlıq və dəstək münasibətlərindən danışıb.

Azərbaycanın Qarsdakı Baş konsulu Zamin Əliyev isə 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı tarixi qələbənin əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, "44 günlük müharibə və 2023-cü il antiterror tədbirləri iştirakçılarının qəhrəmanlığı Azərbaycan dövlətinin tarixinə qızıl hərflərlə yazılıb". Diplomatın sözlərinə görə, işğaldan azad olunmuş torpaqlar Türk dünyasının tarixində dönüş nöqtəsinə çevrilib və türk dövlətlərinin birliyinin möhkəmlənməsinə mühüm təkan verib. "Azərbaycan xalqı bütün dünyaya nümayiş etdirdi ki, birlik və haqq-ədalət uğrunda mübarizəyə heç bir qüvvə müqavimət göstərə bilməz", – deyə o əlavə edib. Baş konsul, həmçinin vurğulayıb ki, Vətən müharibəsində qazanılan qələbə Bakı ilə Ankara arasında müsbədaşlığın daha da dərinləşməsinə zəmin yaradıb.

Tədbir çərçivəsində Azərbaycan və Türkiyədən olan şəhid ailələrinin üzvləri, eləcə də qazilər İğdırın simvollarından biri olan muzeyi və 1915-2015-ci illərdə Şərqi Anadoluda erməni silahlı dəstələrinin cinayətlərinin qurbanı olmuş dinc sakinlərin xatirəsinə ucaldılmış beş qılınc formasındakı abidəni ziyarət ediblər.

Sonda İğdır Sosial Elmlər Liseyinin həyətində Azərbaycan və Türkiyə qəhrəmanlarının xatirəsinə ağac tingləri əkilib.

## "Qəhrəmanlıq izləri rənglərdə" mövzusunda rəsm müsabiqəsi olub



Sentyabrın 16-da Zəfər parkında Naxçıvan Şəhər İcra Hakimiyyəti, Naxçıvan Şəhər Mədəniyyət İdarəsi və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə 27 sentyabr – Anım Gününə həsr olunmuş "Qəhrəmanlıq izləri rənglərdə" mövzusunda rəsm müsabiqəsi keçirilib.

Tədbirdə çıxış edən Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Gülxanım Orucova 44 günlük Vətən müharibəsində qazanılan zəfərin tarixi əhəmiyyətindən bəhs edib.

Sonra Naxçıvan Şəhər Mədəniyyət İdarəsinin müdiri Azər Cəfərli, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Surxay Rzayev və şəhid ailələrinin üzvləri çıxış edərək tarixi hadisələrin incəsənət vasitəsilə gələcək nəsillərə çatdırılmasının əhəmiyyətini vurğulayıblar.

Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbi və Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin şagirdləri arasında keçirilən müsabiqədə qalib-lər diplom və hədiyyələrlə, müsabiqədə iştirak edən şagirdlərin hər biri isə təşəkkürnamə və fəxri fərmanlarla təltif olunublar.

## Evlərinə dönən hadrutlular sevinclərini "Şərq qapısı" qəzeti ilə bölüşdülər

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Xocavənd rayonu, Hadrut qəsəbəsi erməni işğalından azad ediləndən sonra burada genişmiqyaslı abadlıq-quruculuq layihələri icra olunub və hazırda da bu istiqamətdə işlər davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev sentyabrın 14-də qəsəbədə olub. 10 ailə, ümumilikdə, 41 nəfər öz dədə-baba yurdu Hadruta qayıdıb.

Evlərinə dönən hadrutlular sevinclərini "Şərq qapısı" qəzeti ilə bölüşüblər.

İslam Dadaşov 33 il məcburi köçkün kimi Mingəçevirdə yaşayıb. İndi isə o doğma yurduna qayıdıb: "Doğma yurdumuza qayıtmışıq, bundan gözəl nə ola bilər? İndi burada bizlər üçün yüksək dərəcədə şərait yaradılıb. Evlərimiz təmir olunub, yenidən inşa edilib. Bura bizim dədə-baba yurdumuzdur, sevincimizi sözlə ifadə edə bilmirik. Şəhidlərimizə Allahdan rəhmət diləyirəm, indi onların ruhu şaddır. Prezidentimizə isə çox minnətdarıq bizə bu sevinci yaşatdığı üçün. "Dəmir yumruğ"u hər zaman möhkəm olsun".



Digər Hadrut sakini isə bildirdi ki, Hadrut qəsəbəsi işğaldan azad olunduqdan sonra burada genişmiqyaslı bərpa-quruculuq işləri başlanıldı və bu işlər bütün Qarabağda davam etməkdədir: "Biz buranın çoxdandır ki, həsrətindəyik. Bu gün 30 il həsrətində qaldığımız torpaqlarımıza, dədə-baba yurdumuza qayıtmışıq. Uşaqlarımız bu torpaqlarda böyüyəcək. Cənab Prezidentimizə minnətdarlığımızı bildiririk. Onun ayağı dəyən yerlər cənnətə dönür. Bizlərlə görüşərək hər birimizlə yaxından maraqlandı. Hər şeylə təmin olunmuşuq. Bizə bu sevinci, bu hissi yaşatdığına görə cənab İlham Əliyevə çox-çox minnətdarıq. Allah dövlətimizi, bayrağımızı, Prezidentimizi qorusun. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!"



## Qələbəyə gedən yollar



✍ **Ramiyə ƏKBƏROVA**

Füzulidə dayanmışam... Həmin yerdə vaxtilə düşmən postlarına baxıb ürəyimin nifrətlə dolduğu, beş il öncə Vətən oğullarının azad etdiyi torpaqda. Bir gündə onlarla oğulun canını Vətənə qurban verdiyi yerdə. Şəhid qanı ilə yoğrulub Vətən olan o torpaqda. "Keçilməz sədd" adlandırılan Ohanyan xəttinin keçdiyi, Vətən savaşının başladığı yerdə. Artıq beş ildir ki, bu torpaq əsl sahibinə qovuşub. Bu yuxu deyil, həqiqətdir. Dünyanın qəbul etmək məcburiyyətində qaldığı həqiqət. Düşmənin 30 il yarılmaz dediyi həmin səddə baxıram. 30 il möhkəmləndirilən və cəmi bircə saatda Azərbaycanın igid oğulları tərəfindən yarılan həmin "keçilməz" səddə...

Vətənin sinəsini yaran, uzun illər bizə gözdağı olan sədd. Qələbəyə gedən yollar məhz buradan keçib Zəfər yoluna çevrildi. Baxıram ucsuz-bucaqsız Haramı düzünə və bir anlıq keçmişə qayıdıram. Uzun illər öncə hələ yenicə müstəqillik qazanmışdıq ki, vaxtilə torpağımızdan pay verilərək yaradılan Ermənistan adlı qul dövlətinin hücumlarına məruz qalmışdıq. Bacarıqsız rəhbərlik, öz menafeyini güdərək ölkənin ən çətin vaxtlarında qardaş qırğını salan "vətənsevərlərin" sayəsində bağrımız qana dönmüşdü. Qarabağ düşmənin qanlı caynağında qanına qəltan olmuşdu. Xocalı qəlbimizin sağalmaz yarası, Şuşa ən böyük dərdimizə çevrilmişdi. İnsanlar öz doğma el-obasına həsrət alovuna bürünmüşdü. Zamanın bizi sınağa çəkdiyi həmin illərdə Naxçıvanda böyüsəm də, tale mənə ömrümün 15 ilini bu ucsuz-bucaqsız Haramı düzü ilə əhatə olunan, vaxtilə cəbhə bölgəsi deyilən ərazilərdə keçirməyi qismət etdi.

Əslində, mərmi səsinə öyrənmişdim uşaq vaxtından. Məktəbli ikən Şərur şəhərinə atılan bombalar məktəb yoldaşlarımın üzərinə düşüb onları şəhid etmişdi. Soyuq qış gecələrində Şəruru ayağa qaldıran həyəcan siqnalı ilə yuxudan ayılıb zirzəmiyə sığındığımız günlər də olmuşdu. Əyləncə yerimiz olan istirahət parkının Şəhidlər xiyabanına döndüyü günlərə də şahid olmuşdum. Mənim üçün yad deyildi cəbhə bölgəsində olmaq. Amma burada bir fərq var idi. Hər səhər günəş doğulanda da, gecə ay çıxanda da gördüyüm mənzərə fərqli idi. Öz Vətənindən Vətəninə baxmaq. Bəli, orada yaşayan hər kəs öz yurduna həsrətlə baxırdı. Kimi Füzulinin, kimisi Ağcabədinin, bir başqası isə Tərtərin cəbhə kəndinə çevrilən kəndlərindən öz yurduna həsrətlə baxır orada baş verənləri ürək yanğısı ilə izləyirdi.

Ağcabədi rayonunda yaşadığım illərdə hər gün Ağdamın Qarakənd qəsəbəsində var-gəl edən erməni məşinlarını gördükcə qəlbimdəki düşmənə nifrət hissi alovlanırdı. Cənnət yurdumuzun düşmən tapdağında olması, orada erməni əsgərinin gəzməsi insanın qanını dondururdu. Biz nə az, nə çox, düz 30 il bu mənzərəni izlədik. Xain əllərin yurdumuzu necə xarabaya döndərdiyinə şahid olduq. Səbirlə qisasa hazırlaşdıq. Aprel döyüşləri ilk qığılcım oldu Azərbaycan səmasında. Cocuq Mərcanlı Böyük Qayıdışa ilk addım olanda ürəyimiz hiss edirdi qələbənin uzaqda olmadığını... Günnüt Zəfəri isə ürəyimizdəki torpaq eşqini daha da alovlandırdı. Və 44 gün...

Azərbaycan əsgərinin ürəyində Qarabağ yanğısı ilə irəli atıldığı 44 gün. Həmin səhər 200 ildir, gözlədiyimiz bir səhər idi. İki yüz il öncə parçalanan, yarımcan edilən Azərbaycanın haray səsi həmin gün bütün Yer kürəsinə yayıldı. Xalq ordusu ilə birləşib düşmənin üstünə şığıdı. Qartal kimi dağların başına pərvazlanıb öz ovunu caynağına aldı. Nə işğalda olan torpaqların hər qarışına döşənən minalar, nə Murovun buz kəsmiş aşırımları, nə Xocalının qanlı yolları, nə də Şuşanın sıldırım qayaları gözünü qorxuda bilmədi Azərbaycan əsgərinin. Həmin gün hər evi səngər, hər vətəndaşı əsgər olmuşdu artıq Vətənin. Okeanın o tayında təhsil alan gənc öz komfortlu həyatını buraxıb cəbhəyə üz tutmuşdu. Qocalıq müavinətini orduya bağışlamışdı ahıllar. Əlinin xınası hələ getməyən gəlinlər yarım qalan sevgilərini torpağa qurban verib, "Vətən sağ olsun", – demişdi. Və oldu da, Vətən sağ oldu. Dünyanı heyrətə gətirən 44 gündə və 23 saatda Vətən sağ oldu. Onlar – Elçinlər, Elcanlar, Adillər, Muradlar, Ümidlər Vətən sağ olsun deyə canından keçdilər. Füzulidə Ohanyan səddini yarıb Şuşaya Zəfər yolu çəkdilər. Və bütün dünya o torpaqların əbədi sahibinin qayıtdığını gördü. Bu gün Şuşada dalğalanan bayraq igid oğulların gözünün nuru, yeriyən ayağı, tutan əli, son nəfəsindəki pıçıltısı, Xocalıya qayıdan həyat adsız məzarda yatan nişanənin özünə qayıdan kimliyidir.

Zəfər yolu

# Uşaqlıq xatirələrimin qəhrəmanı



Mən gözümü açandan dayımı hərbi formada görmüşəm. O bu formanı, sadəcə, peşə sahibi olsun deyə əyninə geyinməmişdi. Onun hər hərəkətində, hər baxışında Vətənə olan sevgi, xalqa olan bağlılıq hiss olunurdu. Uşaqlıqdan onun Vətən haqqında danışdıqları, torpağın dəyəri haqqında söylədikləri mənim yaddaşıma həkk olunub. Dayım üçün Vətən sevgisi təkcə sözlərdə deyil, əməldə idi. O, əynində forma, qəlbində bayraqla yaşayırdı. Bizim aramızda cəmi 5 yaş fərq var – biz dayımla dost, sirdaş kimi idik. Nənəm demişkən, sonbeşik dayım həm də çox sadə, mehriban bir insan idi. Hər dəfə evə gələndə gedib onun hərbi formasını götürür, papağını başıma qoyurdum. O bunu görəndə sevinirdi, deyirdi ki, sən də Vətəni sev, bayrağı əziz bil.

Dayım Əli Babayev 14 noyabr 1997-ci ildə Şərur rayonunun Danyeri kəndində anadan olub. Nənəmin sözlərinə görə, dayımın elə uşaqlıqdan tək arzusu Vətənə xidmət etmək idi. Elə bu səbəbdən o, məktəbdə də idmanla məşğul olur, dərslərini yaxşı oxuyurdu ki, zabit ola bilsin. Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Liseyə yüksək balla daxil olub. Orada təhsil aldığı illərdə göstərdiyi yüksək nəticələrə və nümunəvi davranışlarına görə dəfələrlə təşəkkürnamələrlə təltif olunub. Liseyi bitirdikdən sonra o, Bakı şəhərində təhsilini davam etdirərək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunlarında həqiqi hərbi xidmətə başladı. Bizdən ayrılıb getsə də, ürəyimiz həmişə onunla idi. Vaxt olduqca onunla telefonla danışardıq. Danışan zaman tək arzusundan söhbət açardı, deyirdi ki, “Dua edin gedim Ankarada hərbi təhsil alım”. Onun bu arzusu da bizim arzumuza çevilmişdi. Və nəhayət ki, dayım ölkələrarası imtahanda yüksək nəticə göstərərək Türkiyənin Ankara şəhərində yerləşən hərbi məktəbə qəbul oldu.

Onun bu uğuru bizim uğurumuza çevrilmişdi. Bir müddət orada təhsil alıb, Vətənə qayıdıb təhsilini burada tamamladı. O, təhsilini başa vurduqdan sonra leytenant rütbəsini aldı. Dayımın bizdən bu qədər uzaqda yaşamasına alışmamışdım, amma onun xəyallarının ardınca getməsi qürur hissi doğururdu. Onun bu cəsarətinə baxdıqca mən də cəsarət toplayırdım. Çünki 2020-ci ildə mənim özüm də məktəbi bitirib və ali məktəbə sənəd verməyə hazırlaşırdım. Dayım hər dəfəsində mənə zəng edib “Sən bacaracaqsan, sənə inanıram”, – deyirdi. Mən də bu motivasiyadan cəsarətlənib hazırlaşırdım. 2020-ci ilin mənim üçün uğurlu il olduğuna inanırdım, bu ilk xəbəri də elə məhz dayıma sevinclə dedim. Dayımla elə son danışmağımız oldu.

27 sentyabr bizim üçün çətin gün oldu, dayımla əlaqə saxlaya bilmirdik. Onun gəlişini, hətta zəngini səbirsizliklə gözləyirdim. Çünki inanırdım ki, qayıdacaq, zəng edəcək. Bir gün atamın zəngi məni kədərə boğdu, hələ də inanmırdım, ta ki bayrağa sarılmış tabutla hərbçilərin çiynində gələnədək. O hissi heç vaxt izah edə bilmərəm.

Dayım hər zaman vətənpərvərliyi ilə seçilirdi. Vətən sevgisi onun hər davranışında, hər sözündə hiss olunurdu. O, şəhidlik zirvəsinə ucalandan sonra döyüş yoldaşları bizə gəlir, onun haqqında danışırdılar. Deyirdilər ki, dayım müharibə başlayan kimi bir an belə tərəddüd etmədən silaha sarılıb, döyüşə yollanıb. O, Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib, qəhrəmanlıq göstərib. Dayımın döyüş meydanındakı cəsarəti, qorxmazlığı təkcə əsgər yoldaşlarının deyil, hər kəsin qürur mənbəyinə çevrilib. Onun göstərdiyi qəhrəmanlıq bizim üçün fəxrdir. Çünki şəhidlər ölmür, onların adı xalqın yaddaşında əbədi həkk olunur.

Şərur Şəhidlər xiyabanında dəfn olunan dayımın məzarını tez-tez ziyarət edirəm. Hər dəfə ziyarət zamanı qəlbim kədərlə dolsa da, içimdə böyük bir qürur hissi baş qaldırır. Mən onunla fəxr edirəm. Hər dəfə adını çəkəndə gözüm dolur, amma qürurla “O bu Vətən uğrunda şəhid olub”, – deyirəm. Dayımın keçdiyi döyüş yolu, göstərdiyi fədakarlıq biz gənclərə örnəkdir. O bizə göstərdi ki, Vətəni qorumaq, sadəcə, borc deyil, eyni zamanda şərəfdir. Onun kimi igidlərin sayəsində bu gün biz başımız dik, torpaqlarımız azad şəkildə yaşayırıq. Əminəm ki, dayımla birgə bütün şəhidlərimizin ruhu rahatdır. Çünki onların qanı yerdə qalmadı, Azərbaycan Ordusu qalib gəldi, torpaqlarımız düşməndən azad edildi. Dayım həm bir qəhrəman, həm də əbədiyyətə qovuşmuş bir tarixdir. Vətən savaşında göstərdiyi rəşadətə görə təltif edildiyi “Füzulinin azad olunmasına görə”, “İgidliyə görə” medalları, “3-cü dərəcəli Vətənə xidmətə görə” ordeni onun kimi oğullara verilən ən böyük dəyərlərdəndir.

Danyeri kəndində “İki dost – iki şəhid” adlı bir bulaq var. Bu bulaq təkcə Əli Babayevin deyil, onun silah yoldaşı və yaxın dostu olan şəhid Elşən Məmmədovun adını da yaşadır. Hər iki qəhrəmanımız bu torpaq uğrunda çiyin-çiyinə döyüşüb, birlikdə şəhid olublar. Onların adına salınan bu bulaq Vətənə sədaqətin, dostluğun və qəhrəmanlığın simvoludur. Onlar şəhid oldular ki, torpaqlarımız azad olsun. Onlar canlarından keçdilər ki, biz sabaha ümidlə baxaq. Bu gün biz rahat nəfəs alırıqsa, bunu Əli dayım kimi igidlərə borcluyuq. Ruhun şad olsun, şəhidim. Adın, xatirən və qəhrəmanlığın qəlbimizdə əbədi yaşayacaq.

✍ **Zəhra VƏLİYEVA**

*Bir zirvə var dünyada, şəhidlik zirvəsi deyirlər adına. Bu zirvə elə bir yerdədir ki, oradan Vətən görünür. O Vətən ki torpağı şəhid qanı ilə yoğrulur. Elə şəhid anası da torpağı sevir, ona deyir sözünü, gözyaşını da torpağa axıdır. Axı oğlu da o torpaq bölünməsin deyə keçmişdi öz şirin canından.*

# Oradan Vətən görünür



Həmin analardan biridir Kəngərli rayonunun Qabıllı kənd sakini İntizar ana. O, Vətən savaşının igid oğullarından biri olan Qurban İbrahimovun anasıdır. İntizar ana səbirli, təmkinli anadır. Ağır dərdini, sözün əsl mənasında, Vətən sevgisiylə ovudur. “Qarabağın geri alınması oğlumun toy-büsatı oldu!” – deyir, söhbətinə davam edir:

“Ağlamıram, hüznlənmirəm oğluma toy xonçası bəzəyə bilmədiyim üçün. Çünki onun məzarı beş ildir ki, xalqın ziyarətgahı olub. Hər qarış torpaq uğruna oğullar sinəsini sipər etdi düşmən gülləsinə. Onlar təkcə öz analarının yox, hamımızın ürəyinin qoru oldular. Təsəllimiz var indi: oğullarımız torpağımızı azad etdilər. Düşmənə aman vermədilər. İllərdir, işğalda olan təkcə bir ovuc torpaq yox, şəhidlərin ruhu da narahat idi. Qurban hərbçi olmağa qərar verəndə xüsusi təyinatlı bölükdə snayper təlimi keçdi. Vətən müharibəsinə oktyabr ayının 11-də yollandı. Suqovuşan, Talış istiqamətində döyüşlərə qatılan Qurban Daşaltıda şəhidlik şərbəti içib”.

Ananın gözləri yenə yol çəkir, həmin günə qayıdır və deyir:

“Ordumuzun qələbə qazandığı xəbərini eşidəndə Qurbandan artıq beş gün idi, soraq yox idi. Həmin gecə, 9 noyabr gecəsi hər kəs küçələrə çıxıb qələbəni bayram edirdi. Amma nədənsə qardaşlarının üzü gülmürdü. Aftandil küçəyə çıxıb sakitcə dayanmışdı, elə hey uzağa baxırdı. Mən sonradan bildim ki, demək onlar bilirmiş qardaşının qələbə, sülh göyərçini olduğunu.

90-cı illərdə Qarabağda gedən döyüşlərdə həm əzizlərimizi itirirdik, həm də torpaqlarımızı. Vətən müharibəsində isə torpağımızı, yurdumuzu geri aldıq. Təsəllimiz var ki, o canlar, o cavanlar hədər yerə qurban getməyib. Onlar özlərindən öncə bu yolda şəhid olanların qisasını aldılar. Dədə-baba yurdumuzu geri qaytarır, milyonları sevindirirlər. Gələn hər şəhid xəbərini öz evimizdə hiss edirik. Şəhidin doğması, yadı olmaz axı. Nə qədər çətin olsa da, başımızı dik tutur, ağlamırıq. İllərdir, qor bağlayan yaramız sağaldı çünki. Oğlumun döyüşdə göstərdiyi şücaətə görə dövlət başçısı tərəfindən təltif edildiyi “Azərbaycan Bayrağı” ordeni, “Vətən uğrunda”, “Şuşanın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” medallarına baxdıqca onun qəhrəmanlığına bir daha şahid oluram”.

İntizar ana ilə söhbət etdikcə “Nə qədər böyüksən, nə qədər ucasan şəhid anası”, – deyə düşünürəm. Siz var olduqca, igid qeyrətli Azərbaycan qadınları var olduqca şəhidlər ölməz. Necə ki biz varıq, Vətənimiz var, onlar da tarix olub qəlblərdə yaşayacaq, – deyirəm.

**“Şərq qapısı”**

# Şəhid qardaşım və qazilik yolum

Biz görüşdük… Qarşımda əzəmətli duruşu ilə, amma gözlərində gizlənən kədər və qürurla bir insan dayanırdı. Xüsusi Təyinatlı Qüvvələrin kiçik çavuşu, Qarabağ qazisi Elnar Möhsümov. Onun danışdığı həyat hekayəsi bir ömürlük dərs və bir vətənpərvərlik dastanı idi.

Müsahibimiz söhbətə iki müqəddəs adla başladı, şəhid qardaşı və keçdiyi döyüş yolu. Elnar Möhsümov həm də Vətən müharibəsi şəhidi leytenant Elmar Möhsümovun qardaşıdır.

Elnar bəy söhbətə elə qazilik yolundan başladı: “Müharibə başlayan gün qardaşım mənə zəng edib sevinclə, qürurlu bir səs tonu ilə döyüşün başladığını, həmçinin də “Haqqınızı halal edin”, – deyərək Bakıya yola düşdüyünü dedi. Hərbçi və bir Vətən övladı olaraq mənim də ürəyimdə eyni amal vardı – işğal altında qalan torpaqlarımızı azad etmək. Ona yalnız bir söz deyə bildim: “Özünü və əsgərlərini qoru, güclü ol. Allah yolunuzu açıq etsin!”

Qardaşımla döyüşlər başlayandan sonra bir dəfə əlaqə saxlaya bildik və mənə 7 kəndimizi azad etdiklərini bildirdi, biz isə onları televiziyadan izləyirdik. Necə də



sevinirdi… O sevinc dolu səsi hələ də qulaqlarımda cingildəyir. Bu Elmarla son danışığımız idi…

Qazinin səsi titrəyir, kövrəlir, amma davam edir: “Sonra bizə də əmr gəldi. Oktyabrın 11-i mən Naxçıvan Xüsusi Təyinatlı Qüvvələrin döyüşçüsü olaraq Bakıya gedib ön cəbhəyə yollandım. Döyüşlər çətin, ağır və amansız idi. Düşmən bütün gücü ilə müqavimət göstərirdi, amma bizim iradəmiz, “dəmir yumruq” əzmi qarşısında tab gətirə bilmirdi.

Hər gün gözlərimizin önündə döyüş yoldaşlarımız şəhid olurdu. Onları çiyinlərimizdə daşıyır, sinəmizdə qisas andı ilə döyüşürdük. Bütün bunlar bir tərəfdən kədər, bir tərəfdən də qürur idi. Biz bilirdik ki, şəhidlərimizin qanı yerdə qalmayacaq, Vətən mütləq azad olacaq. Sonuncu tapşırığımız, Şuşanın azad olunması əmri gəldi. Biz yola düşdük və döyüşə səhər üzü başladıq. Düşmən hər tərəfdən atəş açırdı, qızğın döyüş gedirdi. Həmin döyüşdə mən də düşmənin atdığı ağır artilleriya atəşinə məruz qaldım və ağır travma aldım. Bizim qrupumuzda olan Çalxanqala kəndindən olan qazi Samir Həsənov sanitar vəzifəsində idi, o öz vəzifəsi, yoldaşlığı və qəhrəmanlığı ilə məni xilas edib ilkin tibbi yardım göstərdi.

44 günlük müharibə tariximizin ən şanlı səhifəsi kimi yadda qaldı. 27 sentyabr – Anım Günü, 8 noyabr – Zəfər Günü artıq tariximizin əbədi yaddaşıdır. Müharibədə Xüsusi Təyinatlı Qüvvələrin döyüşçüsü olaraq göstərdiyim şücaətlərə görə, “Cəsur döyüşçü”, “Şuşanın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Vətən müharibəsi iştirakçısı” medalları və “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)” yubiley medalı ilə təltif edilmişəm”.

Elnar bəy şəhid qardaşından da söz açır. Qazinin üzünə qürur işığı qonur: “Ailəmizin kiçik, amma böyük ürəkli vətənpərvər övladı olan Elmar uşaqlıqdan hərbi formaya aşiq idi. Qazandığı yüksək ballarla başqa ali məktəblərə qəbul ola biləcəyi halda, o yalnız Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini seçdi. Çünki onun arzusu Vətənə silahı ilə xidmət etmək idi.

Elmar 2015-2019-cu illərdə təhsilini uğurla başa vurdu və Azərbaycan Ordusunun sıralarında leytenant rütbəsi ilə xidmətə başladı. Onu tanıyan hamı əsgərləri, yoldaşları, komandirləri hər zaman onun qardaşlığını, dostluğunu, nizam-intizamını və yüksək insani keyfiyyətlərini qiymətləndirirdilər.

2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsində Elmar Tərtər rayonunun Suqovuşan qəsəbəsi uğrunda döyüşlərdə qəhrəmancasına vuruşdu. 29 sentyabrda Talış kəndi istiqamətində döyüş yoldaşlarını mühasirədən çıxardı və həmin an qəhrəmancasına şəhid oldu”.

Qazi dərin nəfəs alır, sanki qardaşının qəhrəmanlığını göz önündə canlandırır: “Şəhid Elmar Möhsümovun qəhrəmanlığı dövlətimiz tərəfindən yüksək qiymətləndirildi. O, ölümündən sonra “Vətən uğrunda”, “Suqovuşanın azad olunmasına görə”, “Döyüşdə fərqlənməyə görə” medalları, III dərəcəli “Rəşadət” ordeni ilə təltif edildi. Elmarın ömür yolu gənclərimiz üçün bir məktəb, bir qəhrəmanlıq dastanıdır.

Bizim ailə kiçik olsa da, böyük bir amalımız var idi – Vətənə xidmət. Qardaşım Elmar şəhidlik zirvəsinə yüksəldi, mən isə qazi adı qazandım. Bizi birləşdirən Vətən sevgisi, xalqımıza olan sədaqət idi. Bu gün mənim ən böyük istəyim budur ki, gələcək nəsillər bu qəhrəmanlıq yolunu unutmadan böyüsünlər. Qoy gənclərimiz bilsinlər ki, Vətən torpağı müqəddəsdir və onu qorumaq hər bir Azərbaycan övladının borcudur. Qardaşım şəhid leytenant Elmar Möhsümovun ruhu qarşısında baş əyir, bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı diləyirəm”.

✍ **Elnurə CƏFƏROVA**

# Uzunömürlü və xoşbəxt evliliyin sirri:

## qarşılıqlı hörmət, sevgi və sədaqət



*Kəndin girişində, ağacların kölgəsinə sığınan, divarları illərin nəfəsini özündə daşıyan bir ev qarşılayır bizi. Bu evə yaxınlaşarkən sanki zaman addımlarımızı yavaşladır: sükuta qarışmış həyatın ətrini duyursan. Kəndin sükutunu başı buludlara söykənən dağlardan gələn küləyin pıçıltısı pozur. İllərin köksündə kök atmış bir ev düşünün: divarları xatirələrlə hörülmüş, qapıdan içəri girərkən hər kəsi sükutun içində qarşılayan, həyat nağılı danışan yaddaş sandığı və hər kəsin hörmətlə "dağılmaz qala" adlandırdığı ev. Sanki özünü ağacların arasında gizlədən bu köhnə evdən elə bir istilik, həyat qoxusu gəlir ki, insan onu hiss edərkən belə bihuş olur. Pəncərələrindən nur süzülən bu evdə uzunömürlülüyü ilə tanınan Nəriman baba və Təzəgül nənə yaşayır.*



Evin divarlarına həkk edilmiş rəsmlər bu insanların həyatını şeirə çevirmiş misralardır sanki: hər şəkil bir həyat fəsli, hər fəsil bir ömür nağılı. İllərin zəhməti var o rəngli fotolarda – tozlanmamış təbəssümlər hər baxdıqca zamanı geriyə qaytarır sanki – bir ömürdən pay danışır divarda asılan fotolar. Otaqda olan köhnə güzgünün çərçivəsi solmuş, üzərində illərin izləri var. Bu güzgü Təzəgül nənənin ən çox sevdiyi əşyalardan biridir və evin ən sakit küncündə dayanıb. Deyir ki, hər dəfə bu güzgüyə baxanda tək özünü deyil, Nəriman baba ilə yaşadığı keçmişini görür: bəzən uşaqlığının dumanlı xatirələrini, bəzən isə gəncliyindəki təbəssümü. Bu güzgü, sadəcə, bir əks yaratmır, onların yaddaşını oyadır. Əksində keçmişi yaşadan bu güzgü, sadəcə, bir əşya deyil, o həm də Sadiqovlar ailəsinin, köklərinin, yaddaşının sükutla qoruyucusudur.

Nəriman babanın baxışlarında dağların ucalığı gizlənibsə, Təzəgül nənənin gülüşü evin divarlarına işıq saçır. Üzlərindəki təbəssüm yaşlarının yorğunluğunu yox, ömürlərinin nə qədər qürurlu, qüvvətli olduğunu göstərir. Söhbətə başlayarkən Təzəgül nənənin təmkinli davranışı bu ailənin niyə uzunömürlü olduğunu bir daha göstərir: "Qadın evin dirəyi, kişi isə rəhbəridir. Onun dediyi söz evdə qanun olmalıdır və ilk sözü də kişi deməlidir".

Sadiqovların sevgi macərası isə tam fərqli başlayıb. Təzəgül nənə deyir ki, Nəriman babanın fotosunu görüb və ona vurulub. Elə o gündən onlar arasında sevgi macərası başlayıb: "Mənim Ərəfsədə dayımgil qalırdı və tez-tez Əbrəqunusdan bura gəlirdim. Bir gün gələndə təsadüfən Nərimanın şəklini gördüm. Elə o gündən ona qarşı içimdə sevgi yarandı. Hətta kənddə mənə elçi gəlmək istəyənlər də olurdu, deyirdim, dayım oğlu ilə nişanlıyam. Tanrı onu mənim bəxtimə yazmışdı və bu günədək də bu sevgi davam edir".

Nəriman baba isə 2 ildən çox gözləyib: "Atam 2 dəfə elçi getdi, amma atası vermədi. Dedi ki, "Mən qızımı əbrəqunusluya verəcəm". Mən də gözlədim, həmin vaxt görüşüb söhbət edirdik. Sonra atasının razılığını aldıq və ailə qurduq. Toyumuz Ərəfsə və Əbrəqunus kəndlərində oldu. Bu gördüyünüz evi tikdik, həyətdəki bütün ağacları öz əllərimizlə əkdik, becərdik".

Sadiqovlar artıq 70 ildir, sevgi, hörmət üzərində qurulan bu ailəni süfrə başında paylaşılan bir tikə çörəyə illərin bərəkətini qatdığı kimi qoruyurlar. Deyirlər, hörmət sevginin kökündən boy atan ağacdır – budaqları illərə, yarpaqları xatirələrə, meyvələri isə nəsillərə paylanır. Onların indi belə baxışları sanki illərin arxasından işıq saçır, sözləri dağ çayları kimi axıb gedir. Yaşlarının əsrə bərabər yaxınlaşdığı bir dövrdə belə gülümsəyəndə üzlərində uşaq təmizliyi hiss olunur. Bu, uzunömürlülüyün yalnız bioloji deyil, həm də mənəvi güc olduğunu göstərir. 7 övlad, 16 nəvə və 22 nəticə – bunları birləşdirən isə bir nüans var: ailə mənəviyyatı.

Bu evdə onlar yaşın yorğunluğunu yox, bərəkətini daşıyır. Təzəgül nənənin səsi bir duanın səmaya qalxan pıçıltısı kimi eşidilir: "Uzunömürlülük, sadəcə, illərin çoxluğu deyil, o illəri kiminlə necə yaşadığındır. Hər zaman bu evin qapısı açıq olub, övladlarımıza da tərbiyə verərkən bunu əsas götürmüşük. Ev qonaqlı-qaralı olar, qapı hər zaman açıq olmalıdır. Evə girən adam həm doymalı, həm də ruhən rahatlanmalıdır". Təzəgül nənə danışdıqca insanın ruhu sanki sakitləşir, yenə öz nəsihətlərini verir: "Övladlarıma həmişə demişəm ki, ailə hər şeydən müqəddəsdir, onu qorumaq isə sizlərin borcudur. Baxıb bizə örnək götürməlisiz".

"Bəs övladlarınız ailə qurarkən onlara maneçilik törədibsiz?" sualına ilk olaraq Təzəgül nənə cavab verir: "Qapıya elçi gələn kimi, Nəriman elə qızı verdi, heç gözləmədi (gülür)".

Nəriman baba: "Düz deyir (əlini sıxır). Onlara ilk sualım o oldu ki, bir-birini sevirlər? Qonşumuz idi, dedilər "hə". Mən də dedim əgər sevirlərsə, onların işinə qarışmaq günah olar".

Bu arada Təzəgül nənə söhbəti kəsir: "İndi ailə qurmaq və dağıtmaq çox asan olub. Nəvələrimə deyirəm evlənin, deyirlər "yox". İndi sevgi elə bil, telefon üzərində qurulub. Cavanlara məsləhətim o olardı ki, sevgi ilə yanaşı, sevdikləri adama ilk olaraq hörmət etsinlər. Hörmət ailənin əsas təməlidir, o olmadığı halda ailə də uzunömürlü olmayacaq".

Az sonra Nəriman baba, bəlkə də, illərdir, sandığın dibində gizlənmiş fotoları gətirir – ağ-qara fotolardakı üzlər sanki nəfəs alırmış kimi gülümsəyir, bəzilərinin isə qələmlə qaralanmış gözləri nəsə deməyə çalışır. Fotolarda yad nəfəs hiss edilmir, xatirələr, payız bağı görünür. Gülən insanlara baxaraq köks ötürür Təzəgül nənə – bir anda illərin yükünü çiynində daşıyan bir insana çevrilir. Şəkildəki insan danışmasa da, o anı əbədi saxlamaq üçün əzizləyir fotonu: "Qızımdır, rəhmətə gedən", – deyə gözlərindəki gülüş bir anda yaşla əvəz olunur. Fotoya baxmaq, içindən keçən pıçıltını küləyə danışaraq ona çatdırmaq kimi hiss etmək, amma qızına toxuna bilməmək duyğusu onu hər gün qəhərləndirir: "Hər şəkil unudulmuş qapı kimidir, açıq qalarsa qonağın gələcək, bağlı qalarsa xatirələri boğmaq məcburiyyətində qalırsan". Bu sözdən sonra düşünürsən – xatirələr heç vaxt itmir, köhnə şəkillərin içində sakitcə yaşayır, əziz bir baxışla yenidən qayıdır.

*...Bu evdən ayrılarkən insan düşünür: uzunömürlülük yalnız genetikadan asılı deyil, sevgidən, hörmətdən, ailə istiliyindən doğur. 70 illik həyatı isə vərəqləməklə bitirmək çətindir. Sadiqovlar ailəsi bunun bariz nümunəsidir.*

**Ceyhun MƏMMƏDOV**







## Naxçıvan Dövlət Milli Dram Teatrı Akademik Milli Dram Teatrında yeni mövsümün açılışında iştirak edib



Sentyabrın 13-də Akademik Milli Dram Teatrı 153-cü teatr mövsümünü təntənəli mərasimlə açıq elan edib. Tədbirdə Naxçıvan Dövlət Milli Dram Teatrının direktoru və baş rejissoru Mir Qabil Əkbərov, yaradıcı heyət, teatr ictimaiyyəti, rəsmilər və tamaşaçılar iştirak ediblər.

Mərasim Ümummilli Lider Heydər Əliyevin teatr haqqında fikirlərinin səslənməsi ilə başlayıb. Çıxışlarda Ulu Öndər Heydər Əliyev, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın mədəniyyətə göstərdiyi diqqət və qayğı vurğulanıb.

Tədbirdə İntiqam Babayev və Xalq artisti Hacı İsmayılov yeni mövsüm münasibətilə təbriklərini çatdırıblar. Daha sonra musiqi proqramı təqdim olunub, Xalq artisti Azər Zeynalov, "Kaman" rəqs qrupu, Aynur İsgəndərli və Əməkdar artist Bəyimxanım Vəliyeva çıxış ediblər.

Gecə müxtəlif teatrların səhnələşdirdiyi tamaşalardan parçaların nümayişi ilə davam edib.

Qeyd edək ki, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında keçirilən 153-cü teatr mövsümünün açılışında 36 yaşlı M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının direktoru və bədii rəhbəri Səyyad Məmmədov və nümayəndə heyəti də iştirak edib.

Tədbir zamanı sənət adamları ilə görüşlər keçirilib.Yaradıcı layihələr müzakirə olunub və yeni əməkdaşlıq imkanları yaradılıb.

Bu kimi görüşlər teatr sənətinin inkişafına, yaradıcı mühitin zənginləşməsinə və mədəni əlaqələrin genişlənməsinə mühüm töhfə verir.

## Naxçıvanda ilk qadın kooperativinin yaradılması ilə bağlı seminar keçirilib



Naxçıvan Muxtar Respublikasında ilk qadın kooperativinin yaradılmasına başlanıb. Bu həm də muxtar respublikada ilk aqrar kooperativ olacaq. Kooperativ Azərbaycan Kənd Qadınları Assosiasiyasının təşəbbüsü və Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı nazirliklərinin dəstəyi ilə yaradılır. Kooperativ aqrobiznes sahəsində fəaliyyət göstərən kiçik sahibkar qadınları bir araya gətirəcək. Qadın sahibkarlar həm istehsal, həm də satış mexanizmini birgə quraraq, kooperativ təsərrüfatın digər üstünlüklərindən də faydalanacaqlar. Layihə müxtəlif aqrar sahələri əhatə etməklə, xüsusilə ucqar kəndlərdə yaşayan fermer qadınların iqtisadi və sosial cəhətdən gücləndirilməsinə yönəlib.

İlkin mərhələdə süd məhsullarının emalı və satışı sahəsində fəaliyyət göstərəcək kooperativ qadın fermerlərin bacarıqlarının artırılması, resurslara çıxış imkanlarının genişləndirilməsi və dayanıqlı dəstək mexanizmlərinin formalaşdırılmasını nəzərdə tutur.

Bu barədə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində keçirilən "Kooperativ qurucuLuğu" mövzusunda hibrid formatlı seminarda məlumat verilib.

Tədbirdə Azərbaycan Kənd Qadınları Assosiasiyasının sədri Gülbəniz Qənbərova, Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin sektor müdiri İsrafil Həsənli, həmçinin Azərbaycanda və Türkiyədə uğurlu təcrübəyə malik kooperativ rəhbərləri iştirak ediblər.

Seminar çərçivəsində kooperativlərin yaradılması, idarə olunması, marketinq və satış strategiyaları ilə bağlı təqdimatlar keçirilib, iştirakçılar arasında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, indiyədək Azərbaycanın müxtəlif bölgələrində 14 qadın kooperativi yaradılıb. Bu kooperativlər aqrar sektorun fərqli sahələrini əhatə edir və uğurlu fəaliyyətləri ilə qadınların iqtisadi rolunun gücləndirilməsində mühüm yer tutur.

## Araz çayından Nehrəm qəsəbəsinə su çəkilir



Babək rayonunun Nehrəm qəsəbəsinin torpaq sahələrinin su təminatını yaxşılaşdırmaq üçün Araz çayından qidalanan nasos stansiyalarının və təzyiqli boru xəttinin tikintisinə başlanılıb.

Görülən işlər çərçivəsində diametri 1220 mm, qalınlığı 12 mm olan borular 3 km məsafəyə, diametri 1220 mm, qalınlığı 10 mm olan borular isə 2340 metr məsafəyə boşaldılıb. Lazımi izolyasiya və qaynaq materialları da əraziyə gətirilib. Boru xətti üçün 16 km uzunluğunda trassa hazırlanıb. Relyef çətin olduğuna görə, boru daşıyan maşınların rahat hərəkət etməsi üçün 6-8 metr enində yol salınıb, dərələr doldurulub, bəzi təpələr kəsilərək texnikanın hərəkəti üçün şərait yaradılıb. Bundan başqa, 13 birləşmədən ibarət 169 metr uzunluğunda qaynaq işləri aparılıb. Hazırda isə 2-ci nasos stansiyasının və həcmi 1500 kubmetr olan su anbarının yerində qazıntı işləri davam etdirilir.

## Kənd yollarında təmir işləri aparılır



Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı çərçivəsində Təfsilatlı Tədbirlər Planına uyğun olaraq bir neçə yerli əhəmiyyətli və kənddaxili avtomobil yollarında əsaslı təmir işləri aparılır.

"Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi"ndən "Şərq qapısı"na verilən məlumata görə, uzunluğu 8,5 km olan Ordubad rayon Kələntərdizə-Qoşadizə, uzunluğu 6,8 km olan Aza-Darkənd və uzunluğu 11,7 km olan Anabad-Gənzə kənddaxili avtomobil yollarında torpaq işləri aparılır, yol yatağı genişləndirilir, yol əsası yenidən tikilir, yağış və arx sularının kənarlarına beton kanal çəkilir, su keçidləri inşa edilir və avtomobillərin rahat hərəkəti üçün asfalt örtüyü salınır.



## Ləzzət Group ISM Middle East 2025 sərgisində iştirak edib




15-17 sentyabr tarixlərdə Ləzzət Group dünyanın ən nüfuzlu qida sərgilərindən biri olan ISM Middle East 2025 sərgisində iştirak edib. Dubai World Trade Centredə keçirilən tədbirdə Ləzzət Group öz məhsullarını beynəlxalq bazara təqdim etməklə Azərbaycan qida sənayesinin potensialını nümayiş etdirmək imkanı qazanıb. Ləzzət Group sərgidə müxtəlif istehsal sahələrindən olan ixrac və ixrac potensiallı məhsulları ilə çıxış edib. Qida sahəsində şirkət Tammy və Juiz meyvə şirələri, şirniyyat qrupunda Lay Lay, Valls, Çayka, Amasi, Olley, Share, Zarya markaları, Ləzzət lokumları ilə təmsil olunub.

Qəlyanaltı seqmentində isə Nati balıq krekerləri və Limo qarğıdalı çubuqları ilə məhsullarını sərgi iştirakçılarına təqdim edib. Bu tədbir Azərbaycan məhsullarının keyfiyyətini və rəqabətqabiliyyətini qlobal miqyasda nümayiş etdirmək üçün mühüm platformadır. ISM Middle East beynəlxalq tərəfdaşlarla əməkdaşlıq qurmaq və ixrac potensialını daha da artırmaq üçün əvəzsiz imkan yaradır.

## "Qarabağ"dan tarixi qələbə




UEFA Çempionlar Liqasında Liqa mərhələsinə start verilib.

Ağdamın "Qarabağ" klubu səfərdə "Benfika"nın qonağı olub.

Qurban Qurbanovun yetirmələri ilkin olaraq hesabda 2:0 geri düşsə də, 90 dəqiqənin sonunda geridönüş etməyi bacarıb – 2:3.

Ev sahiblərinin heyətində qolları Entso Barrenetsea və Vangelis Pavlidis vurub.

"Qarabağ"ın heyətində isə Leandro Andrade, Kamilo Duran və Aleksey Kaşuk fərqlənib.





## Uğurdan uğura: Naxçıvan şahmatçıları beynəlxalq arenada



*Naxçıvan şahmat məktəbinin yetirmələri böyük uğura imza atıblar. Zəka sahiblərimiz Türkiyənin Malatya şəhərində keçirilən "Altın Kayısı" beynəlxalq açıq şahmat turnirindəmübarizə aparıblar. 11 ölkədən 486 şahmatçı arasında muxtar diyarı 10 idmançı təmsil edib. Zəka sahiblərimizdən üçü ağ-qara taxtada yüksək nəticə əldə edərək mükafatçılar arasına adlarını yazdırmağı bacarıblar.*



Şahmatçılarımızdan beynəlxalq usta ***Pərviz Qasımov*** yarışın "A" qrupunda mübarizə aparıb və yekunda ilk onluqda qərarlaşıb: "Dünyanın müxtəlif ölkələrindən gələn şahmatçıların mübarizə apardığı turnirlərdə hər zaman rəqabət olur. Elə Malatyada da eyni mübarizə oldu. Bu yarışa ciddi hazırlaşmışdım və ilk onluqda qərarlaşmağım uğurlu nəticədir".

Şahmatçımız eyni uğuru Bitlis şəhərində keçirilən "Betav" turnirində də davam etdirib. Ən reytinqli şahmatçıların mübarizə apardığı "A" kateqoriyasında 9 oyuna 6,5 xal toplayan Pərviz Qasımov ümumi sıralamada 8-ci pillədə qərarlaşıb: "Birinci yerdən cəmi yarım xal geri qaldım. Amma ilk onluqda yer alaraq mükafatçılar sırasında olmaq mənim üçün sevindirici haldır".



***Bahəddin Hətəmov*** isə keçirilən yarışda "B" qrupunda mübarizə aparıb və 3-cü olub. Veteran şahmatçımız illərin təcrübəsini gənclərə örnək kimi təqdim etdiyini deyir: "Uzun illərdir, şahmatla məşğulam və bu gün də yarışlarda Naxçıvanı layiqincə təmsil etməyə çalışıram".

Təcrübəli şahmatçımız əlavə edib ki, ilk turlarda zəif təsir bağışlasa da, sonradan özünü toparlayaraq ardıcıl 4 görüşdə qalib gəlib. Məhz bu əzmkar mübarizə sayəsində o, turniri 3-cü pillədə başa vurub: "İlk oyunlarım istədiyim kimi alınmadı. Ancaq inamımı itirmədim, sona qədər mübarizə apardım və son 4 oyunu qalibiyyətlə başa vurdum".



Bitlis şəhərində keçirilən turnirdə iştirak edən digər təmsilçimiz ***Xatun Nəcəfova*** isə "B" kateqoriyasında 5 xal toplayaraq qadınlar arasında ikinci olub. Şahmatçımız liderlə eyni xala malik olsa da, əmsal fərqinə görə gümüş medala layiq görülüb: "Liderlə eyni xal toplasam da, əmsal fərqinə görə ikinci oldum. Bu medal göstərir ki, zəhmət hədər getmir. Naxçıvanı beynəlxalq turnirdə layiqincə təmsil etmək mənim üçün böyük qürurdur".

Bu nəticələr onu göstərir ki, istər gənc, istərsə də təcrübəli şahmatçılar beynəlxalq arenada uğur qazanmağı bacarır. Onların qələbələri Naxçıvan idmanının yüksəlişinə, gənclərin şahmata marağının artmasına mühüm töhfə verir.

✍ **Elnurə CƏFƏROVA**

### *İtmişdir*

Culfa rayonu, Milax kənd sakini Qəribov Elmar Çərkəz oğlunun adına olan JN-200$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Milax kənd sakini Qəribov Çərkəz Alhüseyn oğlunun adına olan JN-95$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Milax kənd sakini Novruzova Xəzəngül Çərkəz qızının adına olan JN-169$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dəstəkənd sakini Qənbərov Mətləb Əhməd oğlunun adına olan JN-1336$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Qahab kəndində Fərzəliyev Hidayət Səfəralı oğlunun adına olan JN-284$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Həsənov Fariz Vasif oğlunun adına olan JN-445$^{A}$ və JN-445$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, döngə 4, ev 3$^{A}$-da yaşayan Əsədullasoy Fərasət Ruhi qızının adına olan evin 3050 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Əliyev Elmar Əlsəddin oğlunun adına olan MN-0066630, E-016039 nömrəli hərbi bileti itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Ərəbyengicə kənd sakini Səfərova Zəkiyyə Rəcəb qızının adına olan JN-217 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Ərəbyengicə kənd sakini Səfərov İlham Şəmil oğlunun adına olan JN-218 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Məmmədov Miryusif Əbülfəz oğlunun adına olan MN-0055407 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Arbatan kənd sakini Mahmudov Vəli Əziz oğlunun adına olan JN-90$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kənd sakini Əliyev Təmo Həsən oğlunun adına olan JN-58 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Əliyev Nadir Əziz oğlunun adına olan JN-109$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini Həsənov Əhəd Həsən oğlunun adına olan JN-2339$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Abdullayeva Məhbubə Bilal qızının adına verilmiş Naxçıvan şəhəri, H.Əliyev prospekti, ev 27, mənzil 22-ə məxsus olan 04/444 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 236

Nömrəyə məsul: Nail Əsgərov, Ramiyə Əkbərova, Zəhra Vəliyeva
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.